www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 iyun 2016-cı il Bazar ertəsi № 128 (6449) Qiyməti 60 qəpik

**Xəbər**

## Şəhid atası kreditə görə məhkəmə ilə hədələndi

yazısı səh.3-də

**Gündəm**

### "Qanun" nəşriyyatında bomba həyəcanı



**Şahbaz Xuduoğlu:** "Bu, bizə qarşı planlaşdırılan qərəzli bir addımdır"

yazısı səh.3-də

### Ağ Ev Qarabağla bağlı petisiyasını cavablandırdı

yazısı səh.6-da

### Bu gün "Sovetski" sakinlərinə verilən möhlət bitir

yazısı səh.12-də

### İran parlamentindəki türk deputatlar fraksiya yaratdı

yazısı səh.2-də

### "Evrostroy-S" şirkətinə basqın oldu - səbəb və təfərrüatlar

yazısı səh.10-da

### Alıcıların sağlamlığına qəsd edənlər - məhsul üzərində "tarix oyunu" - araşdırma

yazısı səh.12-də

### Prezidentin twitter hesabında təqibçilərin sayı niyə azdır?

yazısı səh.6-da

### Bakıda suvenir fırıldaqçılığı: 1500 manata məcməyi, 120 manata xəncər, 50 manata "kitayski" Məşədi İbad...

yazısı səh.14-də

### Şadlıq evləri və restoranlarda Ramazan "orucu"

yazısı səh.10-da

**Ramazan ayının 7-ci günü**

İftar 20.28. İmsaq 03.08-dək (QMI)

7-ci günün duası: "İlahi, mənə bu günün orucunu tutmaqda və yaxşı əməllər etməkdə kömək ol! Belə bir gündə məni bu günün əyri yollarından və günahlarından uzaqlaşdır! Məni Öz köməyinlə Səni daim yad etməyə müvəffəq et! Ey, yolunu azmışlara Yol Göstərən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN.

## Kremlin Qarabağ dilemması - Azərbaycanı necə qazanmalı

# 17 GÜN SONRA YA MÜHARİBƏ BAŞLAYACAQ, YA DA... - ŞƏRH

Rusiyanın münaqişənin həllində açar rolundan sui-istifadə limiti bitir; Kreml fürsəti yenə də qaçırsa, nəinki konfliktə, bütövlükdə bölgəyə nəzarəti itirə bilər; Putinin müşavirinin "Köçkünlər ilin sonuna geri qayıdacaq" vədi sual altında...




yazısı səh.8-də

## Həbsdəki bankirin həyat yoldaşının ölkədən qaçmasının şok səbəbləri

Cahangir Hacıyevin xanımı haqda həbs qətimkan tədbiri seçilib; vaxtilə Hacı Məmmədovun girovluğunda olmuş Zamirə Hacıyeva 18 milyon mənimsəmədə ittiham olunur...

yazısı səh.5-də



*Zahid Oruc:*

### "Əli İnsanovdan Mandela düzəltmək siyasi romantizm xəstəliyidir"

yazısı səh.7-də



### Klinton prezident olsa, sərhədlərin açılması gündəmə gələcək?

yazısı səh.9-da



### Abbas Abbasovun ABŞ-a köçməsi xəbəri yayıldı

yazısı səh.3-də

# 13 iyun 2016

Elxan Mehdiyev

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016





# Gənc fəalların həbsindən bir ay ötdü

## Bayram Məmmədov və Qiyas İbrahimovun istintaqı aparılmır; onların işindən tezliklə Avropa Məhkəməsinə müraciət ediləcək

**Narkotik ittihamı ilə həbs edilən gənc fəallar Bayram Məmmədov və Qiyas İbrahimovun həbsindən bir ay ötdü. Hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan gənc fəalların istintaqı aparılmır və onların işindən Avropa Məhkəməsinə müraciət ediləcək.**

Bu barədə "Yeni Müsavat"a B.Məmmədov və Q.İbrahimovun vəkili Elçin Sadıqov məlumat verdi: "Onların işi tezliklə Avropa Məhkəməsinə göndəriləcək. Biz əsas olaraq, Konvensiyasının 3,5,6,10,18-ci maddələrinin pozulmasını önə çəkmişik. Əlavə olaraq təhsil hüququnun pozuntusunu əsas məsələ kimi qoymuşuq. Çünki hər iki şəxsin öncəliklə təhsil hüquqları pozulub. İndiyə qədər onlarla bağlı heç bir istintaq hərəkətləri aparılmayıb. İstintaq işgəncə altında verilən izahatla kifayətlənib. Məhkəmədə hər iki gənc işgəncə altında ifadə verdiklərini və bundan imtina etdiklərini qeyd etmələrinə baxmayaraq, istintaq bu günə qədər onlardan yeni ifadə almayıb. Əlavə olaraq, bükülmüş narkotik maddələrin üzərindəki əl izlərinin götürülməsi və onların kimə məxsus olması ilə bağlı vəsatət göndərmişəm. Həmin vəsatətə istintaq ən geci 48 saat ərzində cavab verməli olduğu halda indiyə qədər heç bir cavab verməyib".

Vəkil barələrində 4 aylıq həbs qətimkan tədbiri seçilən gənclərin həbs müddətlərinin artırıla biləcəyinin anonsunu indidən verdi: "Onların həbsi qanuna uyğun deyil və birmənalı cəzalandırılmalarına yönəlib. Hesab edirəm ki, indiyə qədər heç bir istintaq hərəkətlərinin aparılmaması onların həbsdə daha çox saxlanılmalarına yönəlik addımdır. Bunlar gələcəkdə həbs qətimkan tədbirinin əsassız olaraq uzadılmasına xidmət edir. Sonuncu dəfə onlarla keçən həftənin 4-cü günü görüşdüm. Təcridxanada hələ ki, onlara bir təzyiq yoxdur. Bayram Məmmədova ailəsi ilə görüşə hələlik icazə verilməyib. Onlarla görüşəndə dedilər ki, artıq verilən işgəncələrin ağrıları xeyli azalıb. Daxili orqanlarında olan ağrılar da azalmağa başlayıb".

Xatırladaq ki, Qiyas İbrahimov və Bayram Məmmədov Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, satma) maddəsinə əsasən ittiham olunurlar.

❑ Cavanşir ABBASLI

# "Putinə qarşı 1917-ci ildəki ssenari hazırlanır"

**Rusiyada Putinə qarşı ittifaq artıq hazırdır və bu ittifaq 1917-ci ildəki kimi hərəkət edə bilər. Axar.az xəbər verir ki, bu sözləri qondarma Donbasın keçmiş "müdafiə naziri" İqor Strelkov özünün "Vkontakte"dəki səhifəsində paylaşıb. Onun sözlərinə görə, Moskva 100 il önceki tarixini təkrarlamağa hazırdır:**

"Putin özünü elə aparır ki, sanki xoşbəxt neft epoxası hələ də davam edir. Hazırda bizi qarşıda iqtisadi fəlakət gözləyir. Putinin dəyişilməz komandası hələ də dəyişilməz qalır. Bu komandanın yarısı onun dostlarıdır ki, onlar da uyğun zamanı gözləyirlər. Donbas verilən kimi bizə qarşı neqativ ssenari başlayacaq. Heç kim Rusiyaya qarşı sanksiyaları ləğv etməyəcək".


## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**


# İran parlamentindəki türk deputatlar fraksiya yaratdı

**İran parlamentində 60 türk nümayəndəsindən ibarət türk millət vəkillərinin fraksiyası yaradılıb. Tehran, Urmu, Meşginşəhr və Xudabəndə şəhərlərinin millət vəkilləri sözügedən fraksiyanın müvəqqəti İdarə Heyətinə üzv seçiliblər.**

GünAz TV-nin yaydığı xəbərə görə, Təbrizin parlamentdəki millət vəkili Əhməd Rza Beyginin də adı İdarə Heyəti üzvləri arasındadır. Ə.R.Beygi xəbər agentliklərinin müxbirləri ilə görüşdə bildirib ki, yeni yaradılan fraksiya parlamentdə qəbul olunan müxtəlif layihələrdə öz təsirini göstərəcək. Türk millət vəkillərinin yaratdığı fraksiyanın müvəqqəti İdarə Heyətinin üzvü əlavə edib ki, "fraksiya müxtəlif düşərgələrə mənsub olan millət vəkillərini bir araya gətirir və onların arasında güclü birlik yaradır. Bu birlik ölkə vilayətlərinə diqqəti artıracaq və onların arasında vəsaitin ədalətli şəkildə paylanmasına yardımçı olacaq."



Qeyd edək ki, bundan önceki parlamentlərdə türk millət vəkilləri heç vaxt xüsusi bir fraksiyada bir araya gəlməyib və onların arasında ciddi bir birlik müşahidə olunmayıb. Şərhçilər sözügedən fraksiyanın yaradılmasını milli birlik uğrunda atılmış bir addım kimi qiymətləndirir. Hesab olunur ki, bu, türk dilinə rəsmi dil statusu verilməsi, türk dilində ana təhsilə yaşıl işığın yandırılması üçün ciddi fəaliyyətə keçilməsinə stimul verəcək.

Bu günlərdə İranda yaşayan Azərbaycan türklərinin milli birliyi ilə ürəkləri riqqətə gətirən digər bir xəbər də yayılmışdı. Belə ki, Ermənistan milli futbol yığmasının oyunçularından birinin Təbrizin "Traktor" komandası ilə iki illik müqavilə bağlamaq istəyi son anda azarkeşlərin sərt etirazından sonra rədd edildi.

❑ Cavid TURAN



# Heroin satan Zaqatala və Şəki sakinləri saxlanılıb

**Qaxda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan Zaqatala və Şəki sakinləri saxlanılıb. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, Qax rayon Polis Şöbəsinin əməkdaşlarının iyunun 11-i keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Zaqatala rayonu Aşağı Tala kənd sakini Mahir Həmzət oğlu Hacıyev şübhəli şəxs qismində saxlanılıb.**

Hal şahidlərinin iştirakı ilə ondan iki bükümdə, ağır narkotik vasitə hesab olunan heroin aşkarlanaraq götürülüb. M. Hacıyevin ətrafında keçirilən əməliyyat nəticəsində məlum olub ki, o narkotik vasitəni törətdiyi əməllərə görə bir neçə dəfə məhkumluq həyatı yaşayan, Şəki şəhər sakini Natiq Ramiz oğlu Xəlilovdan satış məqsədi ilə alıb. Əməliyyat nəticəsində hər iki şəxs saxlanılaraq istintaqa təhvil verilib. Faktla bağlı Qax RPŞ-də araşdırma aparılır.



# Ərdoğan: "Obama verdiyi sözləri tutmadı"

**ABŞ-ın PYD-yə qarşı mövqeyi bizi narahat edir. Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan söyləyib. Onun sözlərinə görə, Obama İraq və Quantanamo problemlərini həll edə bilmədi:**

"Obamanın ilk ziyarət etdiyi ölkələrdən biri olmamız bizi ümidləndirmişdi. Çox heyf ki, gözləntilərimiz tam olaraq gerçəkləşmədi. İqtisadi sahədə hətta irəliyə doğru addım ata bilmədik. Yaxın Şərq məsələsində Obamadan daha qətiyyətli bir mövqe gözləyirdim. Obamanın İraq məsələsini həll edəcəyini düşünürdüm. Hər kəsə söz verməsinə baxmayaraq, Quantanamo məsələsini həll etmədi. Obama verdiyi sözləri tutmadı".

# Ruslar Avropada qan tökdülər

**Fransanın ev sahibliyi etdiyi AVRO-2016-da gərgin anlar yaşanıb. Belə ki, İngiltərə - Rusiya matçından öncə azarkeşlər arasında dava düşüb. İngilislərlə ruslar arasında baş verən əlbəyaxa döyüşlərdə küt alətlərdən istifadə olunub. Rusiyalı azarkeşlər ingilisləri əzişdiriblər. Hətta münaqişə zamanı bir ingilisin öldüyü bildirilir. 6 nəfər isə müxtəlif dərəcəli xəsarətlərlə xəstəxanaya yerləşdirilib.**

Ruslarla ingilislərin davası bununla da yekunlaşmayıb. Oyundan sonra da tərəflər bir-birinə hücum ediblər. Matç başa çatdıqdan sonra rusiyalı azarkeşlər İngiltərə yığmasının fanatlarının olduğu tribunaya hücum ediblər.

Stadionda ara qarışıb, məzhəb itib. Dəfələrlə xəbərdarlıq edilsə də, ruslar geri çəkilməyib. Qarşıdurmaya polislər müdaxilə edib. Bu dəfə də 30-dan çox azarkeş yaralanıb. 10-a yaxın adam isə həbs edilib.



# Leyla və Arif Yunuslar əməliyyatdan sonra sığınacaq ala bilərlər

**Müalicə olunmaq üçün Azərbaycanı tərk edən hüquq müdafiəçisi Leyla Yunus və həyat yoldaşı Arif Yunusun Hollandiya hökumətindən sığınaq istəmələri barədə xəbər vermişdik. Niderlandın Xarici İşlər Nazirliyinə sığınacaqla bağlı edilən müraciətin üzərindən yarım ay ötsə də, müraciətə hələ də cavab verilməyib.**

Yunusların bu ayın sonlarında əməliyyat olunacaqları deyilir. Əməliyyatdan sonra onların müraciətinin Hollandiya hökuməti tərəfindən cavablandırılacağı gözlənilir. Bu barədə musavat.com-a Yunusların vəkili Elçin Sadıqov məlumat verdi: "Hüquqlarını müdafiə etdiyim şəxslərin müraciətləri barədə məndə dolğun məlumat yoxdur. Amma onu deyə bilərəm ki, onların sığınacaq almaları üçün kifayət qədər əsasları var. Əsassız hesab etdiyimiz izah olunmamış hökmün icrası buna əsas verir. Bu barədə beynəlxalq təşkilatların çoxsaylı bəyanatları var. Bu baxımdan hesab edirəm ki, yaxın günlərdə sığınacaq verilməlidir və veriləcək də. Əldə etdiyim məlumata görə, onlar bu ay əməliyyat olunacaqlar. Əməliyyatla bağlı nəticələri gözləyirəm. Çox güman ki, sığınacaq məsələsi də əməliyyatdan sonra həllini tapacaq".

Yunuslar barələrindəki hökmün 5 il şərti cəza ilə əvəzlənməsindən sonra ötən ilin sonlarında azadlığa buraxılmış və bundan bir müddət sonra Azərbaycanın birinci xanımı, deputat Mehriban Əliyevanın razılığı ilə müalicə olunmaq üçün ölkəni tərk ediblər. Hazırda Yunusların qızı Dinara Yunus Hollandiyada yaşayır və o 2009-cu ildən sığınacaq alıb.

❑ Cavanşir ABBASLI


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016

**Qanun" Nəşriyyat Evinin binası iyunun 11-də axşam saatlarından etibarən polislər tərəfindən nəzarətə götürülüb. Binanın ətrafında polis əməkdaşları tərəfindən post qurulub. Səbəb olaraq isə binada bomba olması ilə bağlı məlumatın daxil olması göstərilib.**

# "Qanun" nəşriyyatında bomba həyəcanı

## Yoxlama zamanı binadan bəzi çap məhsulları, qəliblər götürülüb; nəşriyyatın direktoru **Şahbaz Xuduoğlu:** "Bu, bizə qarşı planlaşdırılan qərəzli bir addımdır"









Bu barədə nəşriyyatın direktoru Şahbaz Xuduoğlu öncə öz facebook səhifəsində paylaşdığı məlumatda bildirib ki, polis mühafizəçinin telefonunu və giriş qapısının açarını götürüb. O, qeyd edib ki, polislər binaya bomba qoyulması barədə məlumat daxil olduğunu və buna görə gəldiklərini deyiblər. Lakin axtarış aparmaq üçün hər hansı sənəd təqdim edilmədiyindən onlar binaya buraxılmayıblar.

İyunun 12-də səhər saatlarından etibarən də nəşriyyatın binası nəzarətdə saxlanılıb. Şahbaz Xuduoğlunun hüquqi nümayəndəsi, vəkil Yalçın İmanovun sözlərinə görə, axtarış aparmaq istəyən hüquq-mühafizə orqanlarının əməkdaşları heç bir hüquqi əsaslar göstərməyiblər: "Biz xahiş etdik ki, Daxili İşlər Nazirliyinin qaynar xəttinə binada bomba olması barədə daxil olan məlumatın mətnini bizə təqdim etsinlər. Lakin təqdim edilmədi. Binada axtarış keçirilməsinin heç bir hüquqi əsası yoxdur".

İyunun 12-də saat 15 radələrində polis əməkdaşları binaya daxil olublar. Binaya işçilərdən bir neçə nəfər də buraxılıb. Axtarışların nəticəsi barədə heç bir məlumat verilmir. Polis binada bomba olması barədə məlumatın olduğunu desə də axtarışlar nəticəsində heç bir partlayıcı maddə tapılmayıb.

Polis əməkdaşları bu barədə məlumatın Daxili İşlər Nazirliyin 102 "qaynar xətt"inə daxil olduğunu bildiriblər.

Musavat.com-un məlumatına görə, axtarışda polis əməkdaşları ilə yanaşı nəşriyyatın bir neçə işçisi də iştirak edib. Yoxlama zamanı jurnalistlər binaya buraxılmayıblar. Yoxlama başa çatandan sonra Şahbaz Xuduoğlu deyib ki, polis əməkdaşları təhqiqat aparmaq adı ilə bəzi çap məhsullarını, qəlibləri aparıblar.

Onun sözlərinə görə, polis axtarışla bağlı əlavə izahat verməyib: "Mətbəəyə də baxdılar. Dediklərinə görə, təhqiqat üçün predmet ola biləcək çap qəlibləri və çap məhsulları götürüblər. Sonra götürülən qəlibləri bizə qaytarıla biləcəyini də dedilər".

Nəşriyyatın direktoru qəfil yoxlamanın arxasında başqa hər hansı siyasi motivin olub-olmayacağı ilə bağlı suala cavabında bunu istisna eləməyib. "Bu, bizə qarşı planlaşdırılan qərəzli bir addımdır" deyib.

❑ **İlkin Murad**
❑ **Fotolar müəllifindir**

# Abbas Abbasovun ABŞ-a köçməsi xəbəri yayıldı

**Azərbaycan Baş nazirinin sabiq birinci müavini, 2005-ci ildən bəri Rusiyada yaşayan Abbas Abbasov barəsində Modern.az-a yeni məlumat daxil olub. Məlumata görə, son vaxtlar Rusiyada işləri yaxşı getməyən Abbas Abbasov çalışdığı AST Şirkətlər Qrupundan ayrılaraq, ABŞ-a köçüb. Sayt məlumatı dəqiqləşdirməyə çalışsa da, Abbas Abbasova yaxınlığı olan mənbələrlə əlaqə saxlamaq mümkün olmayıb.**



Ötən ilin sonlarınadək Rusiyada aktiv ictimai və siyasi fəaliyyəti ilə tez-tez gündəmə gələn Azərbaycan Baş nazirinin keçmiş birinci müavini Abbas Abbasovun son vaxtlar bu işlərdən tamamilə kənara çəkildiyi, yalnız bizneslə məşğul olduğu söylənilir.

Xatırladaq ki, A.Abbasov keçən ilin sonlarınadək Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti ("AzerRos") Ağsaqqallar Şurasının sədri postunu tuturdu, sonra bu vəzifədən və ümumiyyətlə, təşkilatdan istefa verdi. O, bir müddət Rusiyada Azərbaycan əsilli iş adamlarının yaratdığı "Milyarderlər ittifaqı"nın üzvü olub,

Abbas Abbasov uzun müddətdir Azərbaycan əsilli yəhudi milyarder Telman İsmayılovun təsisçisi olduğu AST Şirkətlər Qrupunun vitse-prezidentidir. Amma son vaxtlar T.İsmayılovun da işləri yaxşı getmir. Ona qarşı Rusiya hakimiyyətindən təzyiqlərin artması nəticəsində İsmayılovun "Çerkizovsk" bazarı bağlandı, biznesinə əngəllər yaradıldı və nəhayət sıxışdırılıb Rusiyanın biznes-elitasından çıxarıldı.

# Şəhid atası kreditə görə məhkəmə ilə hədələndi

## 17 ermənini öldürən şəhidin ailəsi borcu ödəyə bilmədiyi üçün çətinliklə üzləşib; **Fazil Mustafa:** "Bu, insanlıqla bağlı məsələdir..."



**Aprel döyüşlərində 17 erməni əsgərini öldürən şəhid Adil Adilzadənin adına olan krediti ödəyə bilmədiyinə görə atası Kamran Adilzadənin bank tərəfindən məhkəmə ilə hədələnməsi ölkəni ayağa qaldırıb. Hər kəs acınacaqlı duruma düşən şəhid ailəsinə acıyır və bankı qınayan fikirlər səsləndirir.**

Həyatını vətən uğrunda qurban verən şəhidin atasının üzləşdiyi acınacaqlı durumla bağlı dedikləri sözün həqiqi mənasında insanın qanını dondurur. K.Adilzadə bildirib ki, oğlu şəhid olana qədər krediti vaxtında ödəyib. Lakin aprelə qədər... Aprel döyüşlərində şəhid olduqdan sonra Adilzadə ailəsi krediti ödəyə bilməyib. Bank isə ödəniş etməyəcəkləri təqdirdə onları məhkəməyə verəcəyini bildirib.

Bu situasiyanın yaranması ölkəmizdə zaman-zaman müzakirə mövzusu olan şəhidlərə olan münasibəti bir daha gündəmə gətirib. Sözsüz ki, burada insanların özündən çox şey asılıdır. Ola bilər ki, qanunvericilikdə bununla bağlı hər hansı müddəa nəzərdə tutulmasın. Bəs bankın həyatını vətəni uğrunda qurban verən bir şəhidin adına olan kreditlə bağlı onun ailəsini məhkəmə ilə hədələməsinə hansı adı vermək olar? Bax bu suala cavab tapmaq çox çətindir.

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa şəhid ailəsinin timsalında yaşananların ibrətamiz hadisə olduğunu qeyd etdi: "Bu problemi ilk növbədə dövlət üzərinə götürməlidir. Şəhid olanların sığorta problemləri var. Şəhid olan birinin hər hansı problemi varsa, bu, onun ailəsinin üzərinə düşməməlidir. Sığorta sistemi natamam olduğundan, bu məsələlər həllini tapmır. Əgər vətəndaş şəhid olubsa, onun ailəsinin təminatı ailəsinin üzərindədir. Banklar məsələsində dövlət tərəfindən müəyyən addımlar atılmalıdır. Şəhid ailəsi məhkəməyə verilibsə, çox güman ki, məhkəmə hər halda bu məsələləri nəzərə alacaq. Çünki heç bir vicdanlı hakim özünə rəva bilməz ki, hansısa şəkildə bu məsələdə şəhid ailəsinin hüquqları pozulsun. Bankı da bəzən qınamaq olmur. Çünki məbləğ böyük olduqda bank da müəyyən çətinliklər yaşayır. Əgər məbləğ kiçikdirsə, bank özü müsbət addımlar atmalıdır ki, vətəndaşın vəziyyəti düzəlsin. Şəhid oğluna görə valideyn bu qədər iztirablar çəkməməlidir. Onsuz da onun mənəvi iztirabları kifayət qədərdir. Digər tərəfdən də maddi iztirab ailənin gələcəyini qaranlıq mərhələyə sürükləyə bilər. Qanunvericiliyə bəzən kiçik müddəalar salınmır. Bu, insanlıqla bağlı məsələdir. Bunun həlli istənilən qanunvericiliyin içərisindən çıxa bilər. Avropa ölkələrində belə məsələləri qanuna salmayıblar. Bütövlükdə cəmiyyət daxilində bilinir ki, kimsə vətən uğrunda şəhid olubsa, belə problemlər həllini tapmalıdır. Başqa bir yolu da yoxdur. Bankı heç bir adla məhkəməyə vermək olmaz. Hüquqi cəhətdən bankın atdığı addım normaldır. Çünki krediti götürən şəxslər ödəyə bilmirsə, zəmanət duran şəxslər məsuliyyət daşıyırlar. Biz müharibə şəraitdə olduğumuza görə, Vətən uğrunda şəhid olanların vəziyyətini anlamaq lazımdır. Söhbət bundan gedir. Bank hüquqi tərəfdən deyil, mənəvi tərəfdən qınana bilər".

Deputat parlamentdə belə məsələləri qaldıracağını da istisna etmədi: "Məsələ qaldırmaq olar. Heç bir problem görmürəm. Amma məsələni öncəliklə aydınlaşdırmaq lazımdır. Kiminsə qınayanda nəzərə almaq lazımdır ki, bankdakı məsul şəxslər şəhid məsələsinə duyarlı insanlar ola bilərlər. Kiminsə haqqına aydınlaşdırmadan girmək olmaz. Yalnız dəqiqləşdirəndən sonra məsələni gündəmə gətirmək olar".

Xatırladaq ki, şəhid Adil Adilzadə 17 erməni öldürərək qolundan yaralanıb. Ancaq buna baxmayaraq döyüşə davam edən Adil bir neçə saat döyüşdükdən sonra düşmən snayperinin gülləsinə tuş gəlib. Adil aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalıb.

P.S. Qəzet çapa gedərkən məlumat yayıldı ki, şəhid atasının kredit borcu məsələsi həllini tapıb. Bu barədə Mingəçevirdən olan deputat Aydın Mirzəzadə Milli.az-a bildirib: "İnformasiya saytlarında aprel döyüşlərində şəhid olmuş Mingəçevir sakini Adil Adilzadənin atası Kamran Adilzadənin bank krediti problemi ilə bağlı informasiya yayıldı. Məsələ ilə maraqlanıldı və problem həll edildi. Şəhid ailəsi bu barədə məmnuniyyətlə məlumatlandırıldı".

❑ **Cavanşir ABBASLI**



# İŞİD qaldı bir yanda, rus, ingilis meydanda

Samir SARI

Atalar yerində deyib ki, dinsizin öhdəsindən imansız gələr. Ancaq rus və ingilis futbol fanatlarının qapışmasını izləyərkən kimin dinsiz, kimin imansız olduğunu müəyyən etmək çətindir.

Hətta adam heç tərəf də tuta bilmir. Çünki hər iki tərəfin fanatları pisdir. Hər ikisi olduqca aqressivdir, illərdir ki, öz faşistliklərini futbol müstəvisinə çıxarıblar, Avropada terror əsdirirlər.

Budur, gəlib bir-biri ilə toqquşdular. Əslində "toqquşma" sözü xəfif qalır, situasiyanı yaxşı ifadə etmir. Rus və ingilislərin davasını göstərən videolara, şəkillərə baxırsan, görürsən ki, əməlli-başlı boğuşma, süpürləşmə, itələşmə, atışma, təpikləşmə gedir.

Bəlkə də zamanında Uilyam Volos ingilislərə qarşı bu qədər nifrətlə, hiddətlə savaşmayıb ki, İngiltərə-Rusiya matçından əvvəl və sonra ruslar ingilislərə qarşı o cür qətiyyətlə savaşırdılar.

Elə ingilislər də döyüş meydanında şücaət göstərirdilər. Hətta döyüşlər suda davam etsəydi, admiral Nelsonun züryətləri admiral Naximovun nəvələrini mütləq suda batırardılar.

Yuxarıda dediyimiz kimi, bu məsələdə biz tərəf tuta bilmərik, biz davadan yanayıq. Qoy dalaşsınlar, biz də oturub baxaq. Bu qədər humanistcəsinə bir mövqe.

Əslində, bütün Avropa belə olmasını istəyir. Guya almanlar istəyir ki, həm futbol sahəsində, həm də küçə döyüşlərində ingilislər, ya ruslar qalib gəlsin? Əsla. Almanların ingilislərdən də, ruslardan da zəhləsi gedir.

Bəlkə fransızlar rusların və ya ingilislərin tərəfini tutarlar? Xeyr. Normal fransız istəyər ki, ingilis rusun boynunu qırsın, rus da ingilisin ayağını qopartsın və hər ikisi şikəst olsun.

Avropanın o biri xalqları da eləcə. Hamısı növbəylə ingilislərdən də ziyan görüblər, ruslardan da.

Biz özümüz də o cümlədənik. 1918-ci ildə rus getdi, ingilis gəldi, sonra ingilis getdi, yerinə təzədən rus gəldi. 1992-ci ildə rus buradan gedən kimi, ingilis (BP) bir neçə konteyner pul götürüb gəldi.

İngilislər tarixən daha ağıllı olublar, bilirlər ki, bəzən qapını tankla yox, funt-sterlinqlə açmaq lazımdır. Amma ruslar dostun da üstünə girz çəkmə və tankla gedirlər, düşmənin də.

Hazırda bütün Avropa üzrə ingilis-rus qapışması gedir. Futbol bəhanədir. Futbol köhnə vaxtlardakı qanlı müharibələrin simvolik, virtual şəklidir. Sadəcə, hər tərəfdə 1 milyon adam döyüşmür, 11 nəfər döyüşür, milyonlar isə oturub azarkşlik edirlər, yeri gələndə dalaşırlar.

Düşüncə və ovqat isə eynidir. 22 nəfərin top dalınca düşməsi zamanı ortaya çıxan qarşılıqlı nifrət 200 min əsgərin hərbi meydanda top atəşi altına düşməsi vaxtı yaranan nifrətə, oxumuş adamlar demişkən, ekvivalentdir.

Məsələn, türkün sözü, alt tərəfi bir oyun olacaq (Allah qoymasa, deyirlər, guya idman sülhə töhfə verir), amma ingilis azarkeşlər toplaşıb "Rusiyaya nifrət edirik" mahnısı oxuyurlar, ruslar da təbii ki, bunu cavabsız qoymurlar. Onlar da bağıra-bağıra İngiltərəyə nifrət etdiklərini deyirlər. Necə deyərlər, söymə mənim prezident babamı, söyməyim sənin kraliça ananı...

İndi belə proqnozlar var ki, rus-ingilis savaşı Avro-2016 boyunca davam edəcək - gah Parisdə, gah Marseldə, gah da Lionda, Nantda-zadda. Harda ruslar ingilisləri azlıqda görsələr, tutub döyəcəklər. İngilislər də rusları təkləyib çırpacaqlar. Çünki araya qan düşüb, savaş başlayıb.

Tərs kimi, ruslar da döyüldükcə qızışan camaatdır, ingilislər də. Hər iki tərəf davaqızışdırıcı içkilərə meyllidir, mey şüşələri əllərindən düşməz.

Bu cür getsə, futbol matçları küçə savaşlarının kölgəsində qalacaq. Hər oyundan sonra Avropa camaatı xəbərlər bülletenində oyundan sonrakı dava-şavaların videolarına baxmalı olacaqlar.

Bunun da öz fanatları var. Çox adam küçə davasını futboldan üstün tutur. Çünki küçə davası daha realitidir, üstəlik, qaydası-filanı da yoxdur. Ay, burada rus ingilisin başına taburetka vurmamalıydı, ay, orada ingilis rusun qasığına təpik tutuzdurmamalıydı... Belə şey yoxdur. İmkanın, gücün nəyə çatırsa, çırp getsin, ölər də özü bilər, qalar da... Düşüncə budur.

Ən qəribəsi odur ki, Avro-2016-nın başlanmasından öncə bütün Avropa narahat idi ki, İŞİD matçlar zamanı Fransada terror aktları törədəcək, qarışıqlıq yaradacaq. Amma gözlənilən olmadı, əvəzində qarışıqlığı Avropanın iki köklü xalqının futbol fanatları yaratdılar...

**Azərbaycana birdəfəlik giriş üçün tələb olunan vizalara görə ödənilən dövlət rüsumu endirilir. Bununla bağlı bir sıra tələblər ləğv olunaraq qaydalarda dəyişiklik ediləcək. Qeyd edək ki, bir neçə ay əvvəl də prezident İlham Əliyev "Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanunun tətbiqi barədə sərəncam imzalayıb.**

# Əcnəbilər üçün vizaların ucuzlaşması turist axınına gətirəcəkmi?

## Ekspertlərə görə, atılan addımlar müsbət olsa da, yetərli deyil, çünki...

Miqrasiya Məcəlləsinə edilən dəyişiklik elektron vizanın alınması ilə bağlıdır. İndiyə qədər sənədlər daxil olduqdan sonra müvafiq icra hakimiyyəti tərəfindən onlara ən geci 10 gün keçənədək baxılıb və viza rəsmiləşdirilərək, elektron qaydada müraciət edən turizm şirkətinin elektron poçt ünvanına göndərilib. Dəyişikliyə əsasən bu müddət 10 gündən 5 günə endirilib.

Ekspertlər isə turist vizaları ilə bağlı edilən dəyişikliklərə fərqli mövqedən yanaşırlar. Musavat.com-a açıqlama verən ekspert Qubad İbadoğlunun sözlərinə görə, viza xərclərinin sadələşdirilməsi, rusumun aşağı salınması, eyni zamanda vizanın əldə olunması vaxtının qısaldılması Azərbaycana maraq göstərən turistlərin istəyi, arzuları üçün deyil: "Həm də Azərbaycana gələnlər, sərmayə qoymaq marağında olanların qarşılaşdığı problem vizaların əldə edilməsi prosesinin uzun olması və eyni zamanda, bununla bağlı xərclərin çoxluğu idi. Bu dəyişiklikləri müsbət dəyərləndirirəm. Hesab edirəm ki, turist cəlbi üçün kifayət deyil. Vacib olan məsələlərdən biridir. Bu istiqamətdə atılan hər bir addım turisti, investoru ölkəyə gətirmək üçün əhəmiyyətlidir".





Ekspert Natiq Cəfərli isə musavat.com-a açıqlamasında qeyd edib ki, viza xərcinin büdcəyə keçirilməsi proseduru nöqteyi-nəzərindən o qədər də ucuzlaşma yoxdur: "Əvvəl 78 qəpik 1 dollar olanda bu rusum 40 dollar götürülmüşdü. O zaman 32 manata yaxın vəsait daxil olurdu büdcəyə. İndi 20 dollar edir və bu zaman da təxminən eyni miqdarda vəsait büdcəyə daxil olur, bir dəyişiklik yoxdur. Sadəcə, gələn turistlər də vizanın proseduru daha çox maraqlandırır, nəinki onun qiyməti. Təbii ki, vizanın iki dəfə ucuzlaşması, 20 dollar olması normaldır. Amma turisti maraqlandıran qiymət deyil, prosedura sərf etdiyi vaxtdır. O nöqteyi-nəzərdən, qonşu ölkələrlə rəqabət aparırıqsa, uduzduğumuz görünür. Bazarda əsas rəqibimiz olan Gürcüstanın keçdiyi yola nəzər salmalıyıq. Gürcüstan 48 ölkə ilə ümumiyyətlə, vizaları ləğv edib. Bu ölkəyə gəlmək üçün pasport bəs edir. Nə sərhəddə, nə ümumiyyətlə səfirliklər vasitəsi ilə heç bir viza əməliyyatlarını aparmağa ehtiyac qalmır. Azərbaycan nəyə görə hansısa ölkələrə viza tətbiq etməlidir ki, hələ qiymətinin ucuz olması ilə də öyünək? Azərbaycan ən azından Avropa Birliyi ölkələri üçün, Amerika, Kanada, Böyük Britaniya, Yaponiya üçün, əsas turist axını olan ölkələr üçün vizaları ləğv etməlidir. Təəssüf ki, Azərbaycan bu addımı atmaq istəmir. Hətta qonşularımızla belə, Türkiyə ilə belə illərlə bu məsələlər müzakirə olunur. Amma Gürcüstandan Türkiyəyə gəlmək üçün hər iki ölkənin vətəndaşının heç xarici pasporta ehtiyacı yoxdur. Sürücülük vəsiqəsi ilə gediş-gəliş mümkündür. Yəni bu nöqteyi-nəzərdən, turizm bazarında bizim əsas rəqibimiz Gürcüstandır və addımlarımızı onun atdığı adımlara uyğunlaşdırmalıyıq. Ümumiyyətlə, viza prosedurlarının ləğv olunması vacibdir. Bu, turizmdə müəyyən irəliləyişə nail olmağa imkan verə bilər. Digər addımlar atılsa, biletlərin qiyməti, hotellərin qiyməti ilə bağlı addımlar atılsa, daha yaxşı olar. Turisti qiymət yox, prosedur qaydası və ona xərclədiyi zaman maraqlandırır".

Qeyd edək ki, bir müddət əvvəl dövlət başçısı elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında fərman imzalayıb. "ASAN Viza" həmçinin elektron vizanın üç iş günü müddətində verilməsini nəzərdə tutur.

❑ Röya RƏFİYEVA

# Supermarket rəhbərlərinin müraciəti - nəticə nə oldu?

## İqtisadçı ekspertlər situasiyadan çıxış yolu göstərirlər...

**Xatırlayırsınızsa, aprelin 18-də bəzi supermarketlərin sahibləri ölkədə istehsal edilən sosial əhəmiyyətli ilkin tələbat məhsulları, xüsusilə ət, balıq, süd, un məmulatları, yumurta, düyü, yağ, meyvə-tərəvəz və uşaq qidaları üzrə ƏDV-yə sıfır faiz dərəcəsinin tətbiq edilməsi xahişi ilə İqtisadiyyat Nazirliyinə məktub ünvanlamışdılar.**




Sahibkarlar iqtisadiyyat nazirinə ünvanladıqları müraciətlərində bildirmişdilər ki, 2015-ci ilin fevral ayının 21-də baş verən devalvasiyadan sonra qiymət artımı və işçi ixtisarına getmədiklərinə görə Azərbaycanın əsas supermarket şəbəkələrinin mənfəət marjaları minimuma enib. Lakin qiymətləri qaldırmadan şəbəkələrdə rentabelliyi və işçi sayını qoruyub saxlamaq mümkün deyil. Maddi sıxıntılar mağazaların bağlanmasına və işçilərin ixtisarına səbəb olub.

İqtisadçı ekspert Natiq Cəfərlinin sözlərinə görə, prosesin davamı olaraq qiymətlərdə artım müşahidə olunur: "Gündəlik bazarlıq edən insanlar ərzaq məhsullarının qiymətində müəyyən artımların olduğunu hiss edirlər. Həm ərzaq məhsullarının, həm də məişət kimyasının bir çox məhsullarının qiymətində artımlar olur. Sahibkarlarla hökumətin razılığa gəlməməsinin nəticəsi olaraq yaranan qiymət fərqini isə yenə vətəndaş öz cibindən ödəməli olacaq. Bundan sonra da biz qiymət artımı müşahidə edəcəyik. Çox güman ki, Vergilər Nazirliyinin qarşısında qoyulan plan azaldılmasa, ƏDV-də hər hansı biz azalmaya getmək mümkün görünmür. Çünki Vergilər Nazirliyinin də öz arqumenti var. Arqument də bundan ibarətdir ki, onların qarşısına plan qoyulub və onu yerinə yetirməlidirlər. ƏDV-də müəyyən güzəşt olunsa, bu zaman plan pozulmalıdır. Vergi toplanması azaldılmalıdır. Azərbaycanın indiki şəraitində büdcədə problemlərin olduğu heç kimə sirr deyil. Bu səbəbdən hökumət vergilərin azaldılmasına getmək istəmir. Çox güman ki, bu prosesi davamı olaraq qiymətlərin hissə-hissə artımının şahidi olacağıq. Hökuməti isə qiymət artımını əhaliyə bir təbii proses kimi çatdırmağa çalışacaq. Əvvəlcə, süni qiymət artımı məsələsi ortaya atıldı, sonradan başa düşdülər ki, iki devalvasiyadan sonra süni qiymət artımından danışmaq yersizdir. Gördülər ki, insanların qiymət artımına ciddi reaksiyaları yoxdur. Bu məsələdə ortaq məxrəc, Vergilər Nazirliyinin vergi ödəyiciləri ilə ortaq bir toplantı keçirməsi və hansı sahələrdə mümkündürsə, ƏDV-nin ləğvi ə ya azaldılmasına getməkdir. ƏDV-ni 18 faizdən 3 faiz azaldaraq 15 faiz müəyyənləşdirmək də mümkündür. Bunun davamı olaraq, Vergilər Nazirliyinin yükü azaldılmalıdır. Ancaq büdcədən azalan vəsaitin bərpa edilməsi üçün daha çox iş adamlarının üzərinə gedilməməlidir. Bu daha çox mənfi nəticələrə səbəb ola bilər".

İqtisadçı ekspert Qubad İbadoğlu: "Mənim müşahidələrim göstərir ki, supermarket rəhbərlərinin dediyi kimi proseslər o qədər də dramatik deyil. Lakin problemlər davam edir. Ola bilər ki, bu sahədə hər hansı qərar olsun. Hesab edirəm ki, Azərbaycanda vergilərin deferensiallaşdırılması istiqamətində addımlar atılmalıdır. Pis vəziyyətə düşən, əvvəlki ilə müqayisədə daha az qazanan ticarət obyektlərinə vergi güzəştləri edilməlidir. Dövlət rəqabəti dəstəkləməlidir və ticarət obyektlərinin bağlanmasına imkan verməməlidir. Qiymət artımları da ticarət mərkəzlərinə yaxşı heç nə vəd etmir. Bu, həm rəqabətdə uduzmağa səbəb olar, həm də dövriyyənin azalması ilə nəticələnər. Bütün hallarda supermarket rəhbərləri çalışmalıdırlar ki, qiymətlərin artımına imkan verməsinlər və dövriyyədən daha çox qazansınlar. O baxımdan bu vəziyyətdə olan təşkilatlarla bağlı hökumətin görəcəyi əsas iş rəqabəti dəstəkləmək olmalıdır".

❑ Nərgiz Liftiyeva

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016

**“Beynəlxalq Bank işi”ndə yeni sensasion məlumatlar yayılıb. Məlum olub ki, Beynəlxalq Bankın İdarə Heyətinin sabiq sədri, hazırda həbsdə olan Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyeva bankirin həbsindən 1 il öncə ölkədən gedib. İstintaqda olan məlumata görə, Z.Hacıyeva Londona gedib.**

# Həbsdəki bankirin həyat yoldaşı ölkədən qaçdı

## Cahangir Hacıyevin xanımı haqda həbs qətimkan tədbiri seçilib; vaxtilə Hacı Məmmədovun girovluğunda olmuş Zamirə Hacıyeva 18 milyon mənimsəmədə ittiham olunur...

Bundan əvvəl də Zamirə Hacıyevanın Beynəlxalq Bankın işi ilə bağlı saxlanıldığı haqda xəbərlər yayılmışdı. Lakin Baş Prokurorluq məlumatı təkzib edib. Bununla belə, məlum olub ki, Zamirə Hacıyeva həbs olunmasa da, onun “Beynəlxalq Bankın işi” çərçivəsində istintaqa cəlb olunması doğrudur. Virtualaz.org yazıb ki, Cahangir Hacıyevin həyat yoldaşının barəsində həbs qətimkan tədbirini Bakının Nərimanov Rayon Məhkəməsi baş prokurorun müavini Rüstəm Usubovun təqdimatı ilə çıxarıb. Zamirə Hacıyeva mütəşəkkil cinayətkar qruplaşmanın tərkibində 18 milyon manatlıq mənimsəmədə ittiham olunur.

Lakin Z.Hacıyeva barədə məhkəmə qərarından belə məlum olur ki, o, xeyli müddət əvvəl - 15 noyabr 2014-cü ildə Bakını tərk edib və bu günə qədər də geri qayıtmayıb. Məhkəmə onun barəsində həbs qətimkan tədbiri seçib və barəsində axtarış elan olunub. R.Usubovun imzaladığı həbs sanksiyasında Zamirə Hacıyeva mütəşəkkil cinayətkar dəstənin üzvü olmaqda, korrupsiyada - Beynəlxalq Bankdan sənəd təqdim etmədən kredit kartı götürməkdə və həmin kartdan müxtəlif posterminallar və internet ödənişlər vasitəsilə, ümumilikdə 18 milyon manat pul çıxarmaqda ittiham olunub. Ancaq göründüyü kimi, Cahangir Hacıyevin həyat yoldaşı hələ Beynəlxalq Bankın işi üzrə həbslərin başlamasından əvvəl ölkəni tərk edib və onun saxlanılması mümkün olmayıb.

“Yeni Müsavat”ın məlumatına görə, Nərimanov Rayon Məhkəməsi Z.Hacıyeva haqda məlum qərarı 1 iyun 2016-cı ildə verib.

Bu tarixdən az əvvəl C.Hacıyev həbsdən vəkili vasitəsi ilə mətbuata ilginc açıqlamalar verib. “Yeni Müsavat” həbsdəki bankirin məlum açıqlamalarını “Cahangir Hacıyev hakimiyyəti "içəri"dən silkələyir" başlığı altında dərc etmişdi. Həmin açıqlamalarında C.Hacıyev ondan ittiham üzrə tələb edilən məbləğləri səhmlər şəklində artıqlaması ilə geri qaytardığını bəyan edib...

Hakim Turqay Hüseynovun imzaladığı qərarda qeyd olunur ki, CM-nin 179.3.1 və 179.3.2 maddələri ilə ittiham olunan Zamirə Şirəli qızı Hacıyeva “Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri vəzifəsində işləyən əri Hacıyev Cahangir Feyzi oğlunun bir neçə cinayətinin törədilməsi üçün bankın bir neçə filialının müdiri ilə birgə cinayət əlaqəsinə giriblər. 2009-cu ildən 2015-ci ilə qədər 18 milyon 429 min manat mənimsəyiblər.




Qərardan aydın olur ki, Z.Hacıyeva ölkəni Bakı Hava Limanı vasitəsi ilə 15 noyabr 2014-cü ildə tərk edib. Həmin tarixdən 27 may 2016-cı ilə qədər istintaqçıların bankirin həyat yoldaşına sualları olmayıb. Həmin tarixdə isə Z.Hacıyeva külli miqdarda mənimsəmədə təqsirli bilinərək barəsində CM-in 179 3.1 və 179.3.2 maddələri ilə təqsirləndirilən şəxs qismində cəlbetmə qərarı qəbul edilib. Lakin Zamirə Hacıyeva ölkədə olmadığından ona ittiham elan edilməsi mümkün olmayıb və bu səbəbdən də Nərimanov Rayon Məhkəməsinə təqdimat verilməklə barəsində həbsli axtarış elan edilməsi haqda qərar verilməsi xahiş olunub. Qərara görə, Z.Hacıyeva saxlanılacağı təqdirdə barəsində 4 aylıq həbs qətimkan tədbiri seçiləcək.

Z.Hacıyevanın barəsindəki qərara diqqət etsək, maraqlı məqamlar üzə çıxır. C.Hacıyev Beynəlxalq Banka rəhbərlik etdiyi dövrdə onun ailə üzvü yarıdan çoxu dövlətə məxsus olan bankın pullarını şəxsi vəsaiti kimi sağa-sola xərcləyib. Həmin dövrdə bankda dövləti təmsil edən Maliyyə Nazirliyinin müvafiq qurumlarının nə işlə məşğul olduqları bilinmir. Üstəlik, 2009-2015-ci illər aralığında mətbuatda Beynəlxalq Bankda baş verən qanunsuzluqlar haqda dövri mətbuatda, “Yeni Müsavat” qəzetində saysız-hesabsız yazılar dərc olunub. Həmin yazılardan biri üzrə vaxtında araşdırma başlasaydı, bu gün C.Hacıyevin həyat yoldaşının 18 milyon manat mənimsəməsi faktı üzrə cinayət işi də ortalıqda olmazdı.

***

Z.Hacıyevanın adı mətbuatın gündəminə ilk dəfə 2005-ci ilin martında gəlmişdi. Onu həmin ilin fevralında hazırda ömürlük həbsdə olan Hacı Məmmədovun dəstəsi oğurlayaraq əri C.Hacıyevdən külli miqdarda - 15 milyon avro pul tələb etmişdilər. 2005-ci il martın 10-da həyata keçirilən “Qara kəmər” əməliyyatı ilə Hacı Məmmədovun dəstəsi ifşa olundu və Zamirə Hacıyeva girovluqdan azad edildi. Sonradan məhkəməsində H.Məmmədov bildirdi ki, C.Hacıyevdən həyat yoldaşına görə 15 milyon avro tələb etsələr də, ondan 2 milyon avro alıb Z.Hacıyevanı azad etmək niyyətində olublar.

Daha bir maraqlı məqam isə budur ki, film kimi həyat yaşayan Hacıyevlər MTN-in bu əməliyyatından sonra qurumun rəhbəri Eldar Mahmudovla quda olmuşdular. Hacı Məmmədov da məhkəməsində dəfələrlə deyirdi ki, o, osminoqun bir qoludur. H.Məmmədov osminoqun başı haqqında, digər qolları barəsində danışmırdı. O və onunla mühakimə edilənlərin bir çoxu ömürlük həbsə məhkum edildilər. Lakin təkcə H.Məmmədov barəsində məhkəmə hökmü çıxarılandan sonra ömürlük məhbusların saxlanıldığı Qobustan Qapalı Həbsxanasına köçürülmədi. Milli təhlükəsizlik naziri Eldar Mahmudov vəzifədən azad edilənə qədər, qanunlara zidd olaraq 10 ildən artıq bir müddətdə H.Məmmədovun MTN təcridxanasından köçürülməsinə imkan vermədi. Həmin müddət ərzində isə Eldar Mahmudovun qudası, Beynəlxalq Bank rəhbəri C.Hacıyev bankın pul vəsaitlərini özünün istədiyi kimi xərcləməyə imkanlar əldə etmişdi.

Bütün bunları bir təsadüf hesab etmək sadəlöhvlük olardı və gec-tez araşdırılması labüddür. Amma vaxtında araşdırma aparılsa, Z.Hacıyevanın misalında olduğu kimi dövlətə vurulan ziyanların da qarşısını almaq mümkün olar. Qeyd edək ki, C.Hacıyevin həbsindən sonra onun banka rəhbərliyi dövründə 6 milyarddan çox vəsaitin kredit şəklində müxtəlif nazirlərin xahişi ilə ayrı-ayrı şəxslərə verildiyi üzə çıxıb.

❑ **E.HÜSEYNOV**

# Ermənilərin Astara həyəcanı



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Ermənilər İran-Azərbaycan əlaqələrindən ciddi narahatdır. Xarici işlər naziri Edvard Nalbəndyan əbəs yerə özünü tez-tələsik Tehrana yetirməmişdi ki. Elə həmin səfərdən sonra iki müsəlman qonşunun münasibətlərinə xələl gətirməyə yönəlik xəbərlərin yayılması da təsadüfi deyildi. Erməni məkri hər zaman öz işindədir.**

Aprel ayında Azərbaycan və İranın dəmir yolunun (Qəzvin-Rəşt-Astara) birləşdirilməsi ilə bağlı mühüm bir anlaşma əldə olundu. Təsəvvür edin, Ermənistanın Qarabağ cəbhəsində sarsıdıcı zərbə almasından iki həftə sonra iki müsəlman ölkə dəmir yolu xətlərini birləşdirməyə qərar verdi. Ermənilər Bakı ilə Tehranı bir-birindən daha çox ayırmaq üçün kilsədə dua etdiyi halda, 20 apreldə Astara çayı üzərində dəmir yolu körpüsünün təməlqoyma mərasimi keçirildi. Azərbaycan və İran Astarasını birləşdirəcək bir körpü.

Bunun ardınca Azərbaycan inşaat işlərinin maliyyələşdirilməsi üçün 500 milyon dollarlıq kredit ayırmağa da razılıq verdi. Elan olundu ki, tələb olunan əlavə 500 milyon dolları isə İran xərcləyəcək. “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov keçən həftə İrandan gəlmiş nümayəndə heyətini qəbul edərkən deyib ki, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində həyata keçirilən nəhəng layihə Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirəcək. Artıq Astara-Astara körpüsünün inşasına başlanılıb, ermənilər necə dözsün? Düşmən Xudafərini ona görə nəzarət altında saxlamır ki, Astara körpüsü tikilsin.

Dəmir yollarının birləşdirilməsi təkcə Azərbaycan və İran arasında iqtisadi əməkdaşlığın genişləndirildməsinə gətirib çıxartmayacaq, yük daşımaları ilə əlaqədar ölkələrin gəlirlərini artırmayacaq, həm də iki ölkə arasındakı soyuqluğu aradan qaldırmağa imkan verəcək. Təbii ki, belə vəziyyət işğalçı Ermənistanı heç cür qane edə bilməzdi. Ona görə də İrəvan-Tehran əlaqələrindəki yeni mərhələ görüntüsü yaratmağa çalışdılar.

Düzdür, Qarabağdakı salamat məscidlərdə donuz (!) saxlayan ermənilər bəzən İran hakimiyyətinin ürəyinə girməyi də bacarır. Necə ki, prezident Ruhani Nalbəndyan vasitəsilə cinayətkar Sərkisyana salam göndərdi və İrəvana gedəcəyini bildirdi. Ancaq hətta bu cür jestlər də İran-Azərbaycan münasibətlərini pozmamalıdır. Bakı maksimum soyuqqanlı şəkildə nəhəng layihələrin reallaşmasına çalışmalıdır, əsas nəticədir. Ermənilər dəmiryolu layihəsinin yarımçıq qalmasını çox arzulayardı...

90-cı illərdən fəaliyyəti dayanan Suxumi-Tiflis-İrəvan dəmir yolu xəttinin bərpası barədə xəbərlərin yenidən dövriyyəyə buraxılması da təsadüfi deyil. Azərbaycanla Gürcüstan arasındakı qaz anlaşmasını pozmaq üçün də çox çalışmışdılar, hətta İrana Ermənistan üzərindən Gürcüstana qaz nəqli təklifini vermişdilər. Bu, əslində Bakı-Tiflis və Bakı-Tehran münasibətlərini korlama layihəsi idi.

Hələ illər öncə keçmiş prezident Levon Ter-Petrosyan “İran Ermənistan üçün nəfəslikdir, o nəfəslik olmazsa, Ermənistan boğular” demişdi. İndi də vəziyyət dəyişməyib. Ermənistanın Türkiyə və Azərbaycanla münasibətləri bəllidir. Gürcüstan-Rusiya münasibətlərindəki gərginlik səbəbindən işğalçı İran “nəfəsliyi”nə ümid bəsləyir. Ona görə də hər dəfə Dağlıq Qarabağın Mehri ilə mübadilə olunması təkliflərindən havalanırlar.

Keçən il Qərb İrana qarşı sanksiyaları aradan qaldıranda bundan sevinən həm də Ermənistan olmuşdu. Erməni düşünürdü ki, Rusiyanı atıb rahatca İran üzərindən Qərbə çıxış imkanı əldə edəcək. Kreml də ehtiyatlı tərpəndi və Ermənistanın hər yeri kimi, havasını da tam nəzarətə götürdü.

İndi Ermənistanda çoxları məcburiyyətdən - xüsusilə də aprel dərsindən sonra - Rusiyanın bu addımına dözür. Ancaq ağıllı ermənilər bu “havasızlıqdan” - Rusiyanın Ermənistanın hava məkanını nəzarət altına almaq qərarından - boğulduğunu açıq deyir. Elə buna görə də Ermənistan parlamentinin bu sənədi ratifikasiya edəcəyi 13 iyun günü etiraz aksiyası təşkil ediblər.

Bu gün Ermənistan həm də ondan narahatdır ki, İran-Azərbaycan dəmiryolu layihəsində Rusiya da var. Erməni mediası manşet yazılarında qeyd edir ki, bu yolla gündə 5 milyon ton (gələcəkdə bu rəqəm 10 milyona çatacaq) yük daşınacaq. Və təbii ki, 2017- ildən reallaşacaq bu nəhəng layihəyə ermənilər uzaqdan baxacaqlar, Lələtəpəyə baxdıqları kimi...

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016

# Prezidentin twitter hesabında təqibçilərin sayı niyə azdır?

## Tənzilə Rüstəmxanlının fikirləri müzakirələrə səbəb olub; aidiyyəti orqanların fəaliyyətsizliyi suallar yaradır

**"Azəri-Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlının "Yeni Müsavat"a verdiyi son müsahibədə səsləndirdiyi bəzi fikirlər müzakirələr yaradıb. Qurumun rəhbəri Dünya Azərbaycanlılarının IV qurultayı ilə bağlı danışarkən prezident İlham Əliyevin twitter səhifəsində izləyicilərin az olmasından narahatlığını dilə gətirib.**

Tənzilə xanım qeyd edib ki, 50 milyonluq bir xalqın ölkə başçısının twitter izləyicilərinin sayı 217 mindir. Onun əsas diqqətçəkən fikirləri bunlardır: "50 milyonluq azərbaycanlıyıq, diasporamız da fəaliyyət göstərir. İndi mətbuat qədər sosial media da önəmlidir. Sosial mediada yazılan yazı dünyanın istənilən nöqtəsinə bir anda oxunur. Bu sosial şəbəkələrdən biri də twitter-dir. Facebookdan fərqli olaraq twitter-də 160 işarə ilə bir fikir ifadə etmək lazımdır. Lakin bu qısa fikir həqiqətən çox təsir edir. Bir anda həmin fikir yüz minlərlə təqibçiyə çatır. Qurultayda dedim ki, niyə prezidentimizi twitterdə 217 min adam təqib edir? Orada rəsmi sənədlər paylaşılır, yayımlanır. Qurultay üzvləri daha öncə etirazlar edirdilər ki, bizə məlumatlar lazım olur, əldə edə bilmirik və sair. Məsələn, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanı twitterdə 8 milyondan çox insan təqib edir. Niyə bizim prezidentimizin təqibçisi 2-3 milyon olmasın? Dedim ki, ən azı buradan başlayın. Hamı çıxış edib deyir ki, biz prezidentimizin fəaliyyətini yüksək qiymətləndiririk. Ancaq təkcə sözlə demək yox, bir az da işə keçmək lazımdır".

Bu fikirlərdən sonra doğrudan da Azərbaycan rəhbərinin twitter səhifəsindəki izləyicilərin sayının olduqca az olması bir anda gündəmə gəlib. Aidiyyəti orqanların bu məsələdəki fəaliyyətsizliyi suallar doğurur.

İqtidaryönlü deputat Zahid Oruc sosial şəbəkələrin hazırda böyük əhəmiyyətə malik olduğunu qeyd etdi: "Sosial şəbəkələr çoxmiqyaslı silah arsenalına çevriliblər. İnformasiya məkanının formalaşmasında əsas rol oynayırlar. Bu gün televiziyalar, çap mediası və digər vasitələr həqiqətən sosial mətbuat qədər əhatə dairəsinə, izlənmə rekorduna malik deyillər. Burada sistem onlayndır, hər istifadəçi operator, xəbər paylayıcısı, ötürücüdür, ətrafında milyonlarla insanı toplaya biləcək agentlikdir. Bir şəxs istənilən rolda çıxış edə bilir. Xüsusilə, dövlət adından siyasət yürüdülürsə, orada prezidentlər, eləcə də, mühüm postları tutanlar həddən artıq izlənməyə malik olmalıdırlar ki, ölkənin siyasəti aydınlaşdırıla bilsin. Təhlillər əsasən, prezidentlərin mövqeləri üzərindən aparılır. Belə olan təqdirdə facebook və twitter səhifələrinə, eləcə də, sosial şəbəkələrdəki qrup fəaliyyətinə böyük önəm vermək lazım gəlir. Hesab edirəm ki, prezidentin şəxsiyyəti, yerinə yetirdiyi missiya, beynəlxalq proseslərdə tutduğu həlledici mövqe, çox mühüm açıqlamaları beynəlxalq məkanda böyük önəm daşıyır. Belə olan təqdirdə bu prosesin içərisində olanlar bunun əhəmiyyətini qəbul etməlidirlər. Bunun hərbidə olan taktikalar kimi önəmi çoxdur. Orada da səngər mövcuddur, əsas hədəfləri tutmaq məqsədləri var. İnformasiyanın əhəmiyyətini anlamaq lazımdır. Cənab prezident qurultayda çox mühüm mesajlarını fərqli dillə ifadə etdi. Diplomatik jarqonlarla hər hansı fikirlərini təqdim etməyə üstünlük vermədi. Sanki hər kəsin beynini, qəlblini Azərbaycan istəyi ilə doldurmaq üçün daha fərqli bir üslubda davranışlar göstərdi. Sərkisyanın əleyhinə haqlı fikirlər səsləndirdi. Cənab prezidentin beynəlxalq məkanda böyük nüfuzu var. Düşünürəm ki, olan 217 minlik izləyici sayı 3 milyona təkcə azərbaycanlılar hesabına çatmamalıdır. Cənab prezidentin fikirləri beynəlxalq aləmə elə çatdırılmalıdır ki, digər xarici telekanallar, qurumlar bunu nəzərə alsınlar. Bu yöndə vacib addımlar atmaq administrasiyanın, oranın mətbuat xidmətinin və adminlərin işidir. Bu şəkildə professional işlər qurmaq olar".



❑ **Cavanşir ABBASLI**

# Ağ Ev Qarabağla bağlı petisiyasını cavablandırdı



## "Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycana qaytarılmalıdır"; **Elxan Süleymanov:** "Bu, Azərbaycanın intellektual mübarizədə mühüm qələbəsidir!"

**Ağ Ev Administrasiyası Azərbaycan ərazisinin 20 faizini işğal edən Ermənistan qoşunlarının geri çəkilməsini tələb edən və baxımsız qalmış Sərsəng bəndinə görə humanitar fəlakətlə üzləşə biləcək yüz minlərlə vətəndaşın vəziyyətini vurğulayan petisiyaya rəsmi cavab verib.**

Qeyd edək ki, petisiya Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) prezidenti, millət vəkili Elxan Süleymanovun imzası ilə Ağ Evin saytında mayın 6-da açılmışdı. Bir ay müddətində petisiyaya 330 mindən artıq insan səs verdi. Bu isə Obama administrasiyasının petisiyaya cavab verməsi üçün lazım olan imza sayından üç dəfə çoxdur. Qaydaya görə, Obama administrasiyasına ünvanlanan müraciətə 1 ay sonra cavab verilir.

Cavabda bildirilir ki, Ağ Ev Sərsəng su anbarı ilə bağlı AŞPA-da qəbul edilən 2085 saylı qətnamə ilə tanışdır, lakin AŞPA üzvü olmamasına baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində maraqlı olan istənilən tərəflə fikir mübadiləsi aparmaq imkanlarını yüksək qiymətləndirir: "Biz tərəfləri təmkinlilik göstərməyə, Dağlıq Qarabağ və ətraf rayonların Azərbaycanın nəzarətinə qaytarılmasını və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini özündə əks etdirən hərtərəfli sülh sazişi üzərində dərhal danışıqlara başlamağa çağırırıq. Tərəflərlə davam edən dialoqun bir parçası olaraq biz humanitar məsələlərlə bağlı müzakirələrin də aparılmasına çalışırıq və çalışacağıq. Sərsəng su anbarının idarə olunması və istismarı bunlardan biridir. Biz tərəflərdən olan texniki ekspertlərin idarə olunma və bənd yoxlanmasını müzakirə etməklə bağlı görüşünü alqışlayırıq. Həmsədrlər bu kimi görüşlərə təkan verməyə hazırdır. Uzun sürən bu münaqişənin həlli Azərbaycan və Ermənistan prezidentlərinin siyasi iradəsindən asılıdır. ATƏT-in Minsk qrupu ölkəsi kimi biz regionda sülh və rifahın təmin olunmasında səylərimizi davam etdirəcəyik". (APA)

Petisiyanın müəllifi Elxan Süleymanov artıq bir neçə həftə əvvəl bildirmişdi: "Ölkəmizə qarşı uzun illərdir dünyanın güc dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən edilən və hazırda da davam edən qlobal siyasi təzyiqlər fonunda bu petisiyaya ABŞ tərəfindən obyektiv münasibət bildirilməsi məndə ciddi şübhələr yaradır. Bu proqnoz öz təsdiqini tapdı. Ağ Ev administrasiyası bu yaxında Avropa Şurası Parlament Assambleyası tərəfindən Sərsəng su anbarına dair qəbul edilmiş 2085 (2016) saylı qətnaməni birbaşa dəstəkləməkdən ABŞ-ın AŞPA-ya üzv olmaması bəhanəsi ilə yayınır. Həmin qətnamədə Ermənistan təcavüzkar adlandırılır və Ermənistan qoşunlarının regiondan dərhal geri çəkilməsi üçün çağırış edilir".




Ağ Evin cavabına dair musavat.com-a yolladığı bəyanatında Elxan Süleymanov "Ağ Ev Administrasiyasının AŞPA-nın 2085 (2016) saylı qətnaməsini birmənalı şəkildə təqdir etməyəcəyini gözləyirdim", deyə bildirib: "Təəssüflənirəm ki, ABŞ administrasiyası petisiyada Sərsəng su anbarının hazırkı durumu səbəbindən baş verə biləcək humanitar fəlakətin qarşısının alınmasına yardım edilməsi ilə bağlı hissəyə etinasızlıq göstərdi. Petisiyada faktiki olaraq işğala məruz qalmış rayonlarda, xüsusilə Sərsəng ərazisində yaşayan əhalinin insan hüquqlarının vəziyyəti vurğulanır, Ağ Evin cavabı isə daha çox "Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə" yönəlib. Bu mənada bir faktı təqdir edirik ki, ABŞ administrasiyası öz mövqeyində Dağlıq Qarabağın separatçı həll yolunu dəstəkləmir və qanunsuz olaraq öz müqəddəratını təyin etməyə imkan yaratmır. Ağ Ev öz cavabında Sərsəngin hazırkı vəziyyətinin qurbanları olan insanların əsas hüquqlarına dair mühüm məsələdən yayınır, lakin ABŞ administrasiyasının Ermənistan ritorikasına qoşulmamasını yüksək qiymətləndiririk".

"Şübhəsiz, biz də ən qısa vaxtda Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycanın nəzarətinə qaytarılmasını və Ermənistan qoşunlarının geri çəkilməsini istəyirik. Bundan əlavə, ABŞ administrasiyasının Ermənistanı açıq-aydın təcavüzkar və işğalçı adlandıran bu ifadə formasını təqdir edirik. Dağlıq Qarabağın gələcək statusuna gəldikdə, qeyd edirik ki, həqiqətən də bir çox Avropa ölkələrində olduğu kimi, yerli muxtariyyət səviyyəsi müəyyən edilə bilər. BMT-nin bir sıra qətnamələrində və AŞPA-nın 2085 (2016) saylı qətnaməsində təsdiqləndiyi kimi, Dağlıq Qarabağ işğal edilmiş ətraf rayonlarla birlikdə Azərbaycanın bir hissəsidir və bu, həmişə belə olacaq. ABŞ administrasiyası da beynəlxalq qətnamələrə hörmət etdiyindən, Obama administrasiyası Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini müzakirə edərkən, açıq-aydın Azərbaycanın suveren sərhədləri çərçivəsində yerli muxtariyyət səviyyəsini nəzərdə tutur", - deyə Elxan Süleymanov fikrini yekunlaşdırıb.

Bir sözlə, Ağ Ev hətta petisiyanın əsas məsələsindən yayınsa da, bu gün Süleymanov Ağ Evin cavabından asılı olmayaraq, petisiyanın əhəmiyyətini bir daha vurğulayır: "Ermənistanın təcavüzkar olması, Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan silahlı qüvvələrinin nəzarətində olması, Sərsəng bəndinə görə humanitar fəlakətin qaçılmaz olması faktları iki aydan artıq müddətdə Ağ Evin rəsmi saytında olub. İyirmi ildən artıqdır ki, qərəzli beynəlxalq mətbuat tərəfindən yanlış məlumatlandırılan bütün dünyadan olan milyonlarla insan iki aydan artıq vaxtda bu sayta daxil olur. Bütün bu insanlar indi ölkəmizə qarşı törədilmiş ədalətsizlik və vətəndaşlarımıza təhdid yaradan konkret təhlükələr və torpaqlarımızın işğalı barədə düzgün məlumat əldə edib. Bu səbəbdən bu petisiya ərazilərimizin işğaldan azad edilməsinə aparan yolda olduqca mühüm və əhəmiyyətli fəaliyyətdir. Bu, Azərbaycanın intellektual mübarizədə mühüm qələbəsidir!".

❑ **E.MƏMMƏDLİ**

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016

# "Əli İnsanovdan Mandela düzəltmək siyasi romantizm xəstəliyidir"

## Zahid Oruc: "Azərbaycan heç vaxt vahid iqtisadi və hərbi ittifaqda olmayacaq"

**"Baxış bucağı"**

**Avrasiya İqtisadi İttifaqı İnstitutunun direktoru Vladimir Lepexin deyib ki, "Azərbaycanın Avrasiya İttifaqına daxil olması barədə müzakirələr qeyri-müəyyən müddətədək təxirə salınıb. Onun sözlərindən belə çıxıb ki, Azərbaycanın üzvlüyünün müzakirəsinin təxirə salınmasına səbəb Dağlıq Qarabağ münaqişəsi ətrafında gərginliyin artmasıdır. Deyilənlərdən belə aydın olur ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun son Bakı səfərində bununla bağlı səsləndirdiyi fikirlər əbəs deyilmiş, Moskva Bakını yeni SSRİ-də görmək istəyir və hətta gizli proses də gedir, müzakirələr aparılırmış. Deputat, Milli Məclisin Təhlükəsizlik, Müdafiə və Korrupsiya məsələləri komitəsinin üzvü Zahid Orucla söhbətimizdə ilk olaraq bu mövzudan başladıq:**





*- Zahid bəy, Vladimir Lepexinin son açıqlamasını necə izah edirsiniz? İndiki durumda Azərbaycanın Avrasiya İttifaqına qoşulması mümkündürmü? Hansısa şərtlər daxilində buna getmək olarmı?*

- Yeni İttifaq qurmaq üçün Lenin kimi dahi inqilabçı olmaq belə yetərli deyil. Çünki Rusiyanın imperiya quracağını deyib Şərqi Avropada və Baltikyanı ölkələrdə hərbi çəkisini artıran NATO, sadəcə, genişlənməyə və hərbi mövcudluğuna əsas qazanmağa çalışır. İndi Putinin hər bir addımını Hitlerlə paralelləşdirmək Qərb üçün əla bir startap olub. Lakin heç kəs sual etmir - Avrasiya İqtisadi Birliyi ilə Qərb arasında ticarət dövriyyəsi necədir, yəni ayrıca götürülmüş İtaliya, Almaniya və Fransa ilə hansı əlaqələr hər şeyi izah edir. Doğrudur, bolşeviklərin zamanında, yaxud Stalinin hökmranlıq illərində də imperialist sayılan ölkələrlə böyük iqtisadi əməkdaşlıq mövcud idi. Lakin indi Putin özü elə bir ideologiya kəşf edə bilməz ki, yenidən xalqları total idarəçiliyi və ya köləliyi altında hər hansı birliyə qoşsun. Deməli, SSRİ ideyası Qərbin əlində qorxu aləti və antirusiya cəbhəsini ayaqda saxlamaq texnologiyasıdır. Azərbaycan heç vaxt vahid iqtisadi və hərbi ittifaqda olmayacaq.

*- Belə fikirlər var ki, Qarabağla bağlı razılaşmaların fonunda Avrasiya blokuna qoşulmaq olar...*

- Azərbaycanın hətta Qarabağı öz nəzarəti altına qaytarması belə, geopolitik konsensus yaratmayacaq. Əksinə, kim Xankəndinə nəzarət edirsə, onun müstəqilliyi daha çox təhlükə altına düşür. Belə mürəkkəb beynəlxalq şəraitdə təhlükəsizlik zolağı yaradıb onun içərisində yaşamaq hədsiz çətindir. Təsəvvür edin ki, Rusiya planı münaqişənin çözümünə səbəb olur və Obama Putinlə birgə vahid sənədə imza edirlər, hər halda bundan sonra Qafqazın gələcəyini təsəvvür etmək yenə də asan deyil. Çünki iqtisadi olaraq Qərbin partnyoru olan Azərbaycan Qarabağa sahib olmaq üçün bütün Qərb kompaniyalarını qovub burada ikinci Ermənistana bərabər bir rus koloniyası yaradası deyil. İlham Əliyev tarixdə bir qarış torpaq itkisinə yol verməmiş lider kimi qalmaq istəyərkən regional qüvvələr arasında hansı addımlar atmağın gərək olduğunu bilən ən böyük sərkərdədir. Ona görə də bizim dövlətimiz məhz ölkə başçısının sayəsində statik olaraq şərt gözləyən tərəf deyil, öz maraqlarının tələb etdiyi şəraiti formalaşdıran mühüm beynəlxalq aktyordur. Məsələn, bu günlərdə Rusiya da Cənub Qaz dəhlizi ilə bağlı Azərbaycanla eyni konsepsiyanı bölüşəndə heç kəs təəccüblənmir.

**"Bəzən sükutu mövqeyə çevirənlərin çoxluğu fonunda fərqli tribunalarda söylənilən fikirlərimizə fərqli libas geyindirənlər olur"**

*- Azərbaycandakı vəziyyətlə bağlı bir neçə ay öncəyədək ciddi tənqidi fikirləriniz oldu. Düzdür, sonrakı dönəmdə deyəsən, özlüyünüzdə "sükut ayları" elan etdiniz və susmağa üstünlük verdiniz. Bu müddətdə tənqid hədəfinizdəki hansısa sahələrdə irəliləyişlər oldumu?*

- Devalvasiya fonunda ənənəvi iqtisadi inkişafdan qopmuş və sosial sabitlik atmosferindən kənarlaşmaq yolunu tutmuş insanları görərkən ona biganə qalmaq nəinki millət vəkili adına, eləcə də müdafiə etdiyim siyasi kursun mahiyyətinə və onun gələcək davamlılığı ideyasına zidd olardı. Mənim dilə gətirdiyim tənqidi fikirlər ulu öndər ideallarına sədaqətimdən doğurdu və yeni çağırışlar qarşısında olan ölkəmin taleyinə biganə olmadığımızı göstərirdi. Halbuki, əlimizi sıxıb bizimlə həmrəylik göstərənlər hər vəchlə susmaqla hara xidmət etdiklərini özləri bilmirdilər. Onlar qazandıqlarını itirməmək üçün istənilən rejimlə müqavilə bağlayarlar. Onlar bir vaxtlar Napoleon Fransasında olduğu kimi, royalistlər və yakobinçilərin, digər cərəyanların arasında gedən qanlı savaşlarda, termidor inqilablarında başları kötüyə gəlməsin deyə, min cür hiyləyə əl atanlara bənzəyirlər. Əslində parlamentdə normal müzakirə mühitində prezident İlham Əliyevin elan etdiyi yeni kursun mahiyyətini daha yaxşı izah etmək, onun hansı hədəfləri qarşıya qoyduğunu daha müfəssəl çatdırmaq mümkün idi. Lakin bəzən sükutu mövqeyə çevirənlərin çoxluğu fonunda fərqli tribunalarda söylənilən fikirlərimizə fərqli libas geyindirənlər olur. Hər bir halda prezidentin məhz xalqa söykənərək inqilabi islahatları davam etdirməsi hər cür devalvasiya şokunu adlatmağa imkan verdi və yalnız birinci şəxsin dayanıqlı, yüksək etimada malik olması kəskin sosial toqquşmalardan yan keçməyə şərait yaratdı. Dövlət başçısı problemləri imkana çevirməyi bacardı. Ona görə həmin dövrdə ən sərt leksikona malik olan İlham Əliyevi müxtəlif hakimiyyət dəhlizlərində dərindən təhlil edənlərin hamısı bizim kimi düşünürdü. Faktiki olaraq instusional islahatların dərinləşməsi və dəyişilən siyasətin keyfiyyət fərqi dediklərimizə sübutdur. Xalqdan gələn çağırışları ən yaxşı dinləyən lider məhz prezidentin özüdür. "Sükut mövqeyi"nə çəkilməyə gəldikdə isə, hər halda siyasət birxətli və təkməchullu tənlik deyil. Onu matrisa kimi qəbul edərək bir çox beyinlərin sakitləməsini gözləmək lazım idi. Lakin mən parlament üzvü kimi heç zaman əqidəmdən və siyasi yolumdan dönməmişəm.

*- Necə bilirsiniz, çevik hökumət modeli bizdə niyə reallaşmır? Kadr bankımız zəifdir, yoxsa məmur maneəsi kifayət qədər güclüdür ki, yeni, gənc kadrlara "yaşıl işıq" yandırılmır?*

- Çevik hökumət modelini indi həyata keçirənlər təkcə "Asan Xidmət"çilər deyil. Hər halda idxal və ixrac əməliyyatlarının şəffaf əsaslarla həyata keçirilməsi, sosial təminat sektorunda və hərbi sistemdəki dəyişikliklər, o cümlədən, sahibkarlıq sinfinə qarşı aparılan haqsız rəqabət mühitinin ortadan qaldırılması üçün son 9 ayda həyata keçirilən genişmiqyaslı tədbirlər yeni Azərbaycan quruculuğunun tərkib hissəsidir. İndi hətta bir il əvvəlki dönəmdən fərqli olan onlarla köklü dəyişilim proqramlarının reallığa çevrildiyini söyləyə bilərik. Gənclər idarəçiliyin mühüm nüvəsini təşkil etsə, idarəçiliyi nəsillər arası davaya çevirmək olmaz. Həyat hansı harmoniyada mövcuddursa, dövləti də həmin mexanizmdə ayaqda tutmaq mümkündür. Lakin prinsiplərin daimiliyinə hər hansı yaş amilindən daha çox önəm verilməlidir.

*- Sabiq səhiyyə naziri Əli İnsanov deyib ki, 4 aydan sonra həbsdən çıxandan sonra hakimiyyətlə hesablaşacaq. Onun azadlığı şəraitində nələr ola bilər, proqnozunuz necədir?*

- Əli İnsanovun həbsi və ya oradan çıxması ətrafında ajiotaj onun həqiqi siyasi və elmi çəkisindən xeyli artıq aparılır. Halbuki o, nə regional lider, nə də milli cəfakeşdir. Kiminsə dəmir barmaqlıqlar arxasından iddialı bəyanatlar verməsi azadlıqdan məhrum edilmiş bir insanın qəzəbindən başqa bir şey deyil. Ötən illər ərzində dəyişilmiş və yeni düşüncə reallığı içərisində yaşayan bir ölkədə bolşevizm və revanişimzmlə xalqın dəstəyini qazanmaq qeyri-mümkündür. Cəmiyyət kəskin keçidləri qəbul etmir. Radikalizm sovetlərdən sonrakı illərin siyasi trendi idi, indi hətta ən populyar avantüraları belə toplumun ağıllı və dayanıqlı vəziyyəti fonunda irəlilətmək bir kimsəyə nəsib olmur. Baxın, köhnə siyasi qvardiya və cəbhə şinelini geyinərək vitrinə çıxan hər kəs xalq tərəfindən test edilib və cəmiyyəti təəccübləndirmək elə də asan deyil. Ona görə də kiminsə Əli İnsanovdan Nelson Mandela düzəltməsi yalnız siyasi romantizm xəstəliyidir. Hər halda millətimizə bir müqəddəs Əli adı bəllidir - o da İmam Əli Əleyhissəlamdır.

**"Ən böyük problemimiz "hamı üçün yaxşı olan modeli qura bilməyənlərin, heç kəs üçün ayrılıqda cənnət yarada bilməzliyi" düşüncəsinə gəlib çatmasıdır"**

*- Necə bilirsiniz, bu gün Azərbaycanın Qarabağdan sonra ən böyük problemi nədir, manatın devalvasiyası, korrupsiya, məhkəmələrin qeyri-müstəqilliyi, yoxsa məmur özbaşınalığı?*

- Qarabağdan sonra ifadəsi çox maraqlıdır. Əslində uzun illərin işğal reallığı müxtəlif idarəçilik problemlərinin yaradıcısı olub. Lakin cənab prezidentin "asan inqilab layihəsi" sübut etdi ki, bu xalqla ən yaxşı hüquqlu dövlətini qurmaq və ilahi ədaləti təmin etmək mümkündür. Lakin cəmiyyətin sosial və siyasi orqanizmi daha mürəkkəbdir. Maraqları tapdalanan xarici və daxili qüvvələri nəzərə almadan bütün mənfilikləri bir günün içərisində yox edə bilməzsən. Pislərin ittifaqı yaxşıların alyansından daha mütəhərrik olur. Ona görə də ən böyük problemimiz "hamı üçün yaxşı olan modeli qura bilməyənlərin, heç kəs üçün ayrılıqda cənnət yarada bilməzliyi" düşüncəsinə gəlib çatmasıdır. Biz kollektiv düşüncəni hakim olaraq qəbul edən qərblilərdən fərqli olaraq fərdiyətçiyik. Ona görə birinci şəxsin liderlik istedadı və müasir dünyanın aparıcı axınlarını bilmək qabiliyyəti ən yaxşı çıxış yolumuzdur.

*- Özünüz futbol həvəskarısınız və parlamentin futbol komandasında da oynayırsınız. Maraqlıdır, Avropa Çempionatında hansı komandaya azarkeşlik edirsiniz?*

- Əslində dünyada Kameruna azarkeşlik edirəm. Lakin Avropa komandaları arasında ispanların azarkeşiyəm.

*- Çempion kim olacaq, sizcə?*

- Məncə, çempion ingilislər olacaq.

*- Bəs, Türkiyə millisindən nə gözləyirsiniz?*

- Təəssüf ki, Türkiyə 8 il əvvəlki deyil...

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016



# Meşə sanitarsız qalanda

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxında qorxaqlıq və qəhrəmanlıq haqda bir elmi məqalə oxumuşam, istəyirəm öncə onun kədərli nəticələrini sizə çatdırım, birdən çaşıb qəhrəmanlıq eləmək fikrinə düşməyəsiniz. Sən demə, təkamül nəzəriyyəsi isbat edib ki, qəhrəmanların nəsli kəsilir, qorxaqların isə nəsli davam edir. Çünki qəhrəmanlar ağına-bozuna baxmadan ölümün, təhlükənin, dinozavrın, çaqqalın, canım sənə desin, düşmən tankının-filanın üstünə gedirlər və çox zaman bizdə deyilən kimi - qəhrəmancasına həlak olurlar. Qorxaqlar isə istənilən təbii, sosial, siyasi mühitə uyğunlaşıb sağ qalırlar. Deməli, biz - indiki bəşəriyyət yaşadığımız üçün... qorxaqlara borcluyuq. Paradoksal görünə bilər, ancaq acı reallıq belədir.**

Sözümün canı odur ki, ürəklə YAP-a girin, qardaşınızı satın, atanızın cibini yarın, fərarilik edin, yaltaqlanın, yalan danışın - elmi baxımdan düzgün yoldasınız. Kim sizi qınasa, tənqid eləsə, onun həyatdan xəbəri yoxdur, həmçinin bir dənə elmi kitab arası da açmamışdır. Hazırda yaltaqlığın faydaları haqda elmi araşdırmaları öyrənirəm, onu da uca millətimizə çatdıracağam, heç narahat olmayın. Elmdən uzaq düşməyimizə aid bir örnək göstərim, özünüz baxın.

Canavarların, ümumiyyətlə yırtıcıların fauna aləmində bir növ həkim rolu oynadığı, xəstə, sürüyə yük, sürünün analoqu olmayan inkişafına maneə heyvan fərdlərini tutub parçaladığı bizə məlumdur. Ətyeyənlər bu mənada otyeyənlərin sağlam nəsil törətməsinə, tərəqqisinə səbəb olurlar. Canavar gələndə bərk qaçan qoyunun uşaqları onun şərəfli yolunu davam etdirir, dayanıb canavarı kəskin, tənqid edici baxışlarla süzən, canavarın hesabları haqda sanki araşdırma aparmağa hazırlaşan qoyunu isə bir anda parçalayıb kökünü kəsirlər. Cəmiyyət - insan sürüsü də belədir. Bizim ümummilli canavarlarımızdan biri polis polkovniki Hacı Məmmədov idi. Hacı müəllim varlıları, məmurları tutub soyurdu. Ancaq 2005-ci ildə Beynəlxalq Bankın müdiri Cahangir Hacıyevin arvadı Zamirə Hacıyevanı oğurlaması onun son əməli oldu. Banda ələ keçdi. Əməliyyata MTN şefi Eldar Mahmudov başçılıq etmişdi.

Bəs 10 il keçəndən sonra nə məlum oldu? Sən demə, Hacı Məmmədovu həbs edənlər özləri daha böyük cinayətlər törədiblər, bankı soyublar, hətta iqtisadiyyatımızın təkamülünə mane olublar. Hacı beş alıbsa, bunlar on beş alırmış. Hacı bir armud qopardanda, bunlar ağacı, bəzən bağı bütövlükdə qurudurmuş. Çünki təbiətdəki bir canavar sanitar rolu oynayırsa, canavar sürüsü çoban vəzifəsinə keçibsə, vay sürünün halına. Elə bu günlərdə ortaya çıxan fakta diqqət edin.

Bayaq adını çəkdiyim Zamirə Hacıyevanı oğurlayandan az sonra banda ələ keçdi, heç bir qəpik də ala bilmədilər. Məhkəmə zamanı, 2006-cı ildə Hacı Məmmədov demişdi ki, Cahangir Hacıyevdən arvadının geri qaytarılması üçün öncə 15 milyon avro, axırda isə qiyməti endirib 2 milyon avro istəmək fikrində olublar. İndi isə məhkəmə-istintaq orqanları Beynəlxalq Bankdan oğurluq maddəsi ilə açılan cinayət işi üzrə Cahangir Hacıyevi tutub içəri salıblar, arvadı Zamirə Hacıyeva isə aradan çıxıb. Axtarışda olan xanım bankdan 18 milyon manatı əkişdirməkdə suçlanır.

Cahangir müəllimin özünün neçə yüz milyon (ya da milyard - dəqiq yadımda deyil) yeməsini bir qırağa qoyaq. Təkcə arvadına açılan cinayət işindəki məbləğ bədbəxt Hacı Məmmədovun nakam əməliyyatında arzuladığı məbləğdən hardasa 7 dəfə çoxdur. Yəni, məntiqlə belə çıxır ki, əgər Hacı müəllimə imkan verilsəydi, o, 2005-ci ildə Zamirə Hacıyevadan 2 milyon avronu alsaydı, bəlkə Hacıyeva gələcəkdə 18 milyon manatı çırpışdırmağa ürək eləməzdi. Amma canavarın qorxusu başı üstündə olmadığı üçün istədiyi kefi sürübdür, dövlətin bankını uşaqların qəpik topladığı donuz kassası kimi bir şeyə döndəribdir: sındırıb pulu əkişdirir, sonra yerini tüpürcəklə yapışdırırmış.

Qədim romalılar ona görə deyirdilər ki, “homo homini lupus est”. İnsan insanın canavarıdır.

# Kremlin Qarabağ dilemması - Azərbaycanı necə qazanmalı

**Ümidlər indi də iyunun sonuna nəzərdə tutulan Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin üçtərəfli görüşünə bağlanıb. Moskva növbəti belə bir görüşü də, söz yox ki, asanca təşkil etmək imkanındadır. Bu günədək baş tutan 20-dən çox belə təmasın çoxu məhz Kremlin moderatorluğu ilə reallaşıb. Ancaq əfsuslar olsun ki, onların heç biri Qarabağ probleminin həllində dönüş nöqtəsi ola bilməyib.**



## 17 gün sonra ya müharibə başlayacaq, ya da... - şərh

### Rusiyanın münaqişənin həllində açar rolundan sui-istifadə limiti bitir; Kreml fürsəti yenə də qaçırsa, nəinki konfliktə, bütövlükdə bölgəyə nəzarəti itirə bilər; Putinin müşavirinin “Köçkünlər ilin sonuna geri qayıdacaq” vədi sual altında...

Səbəb aydındır: ona görə dönüş baş verməyib ki, Kreml bunca unikal vasitəçilik imkanlarına, heç kəsdə olmayan çözüm şanslarına rəğmən, obrazlı desək, “sabun bişirmək istəməyib”. Bu görüşləri müstəsna olaraq, münaqişənin həllində öz dominant rolunu Qərbə, Azərbaycan və Ermənistana nümayiş etdirib cari maraqlarını təmin eləmək naminə təşkil edib. Yəni “əzələ nümayişi” niyyəti güdüb.

Bu dəfə də nəticə eyni olacaqmı, Kreml yenə Azərbaycan və Ermənistanı öz orbitində saxlamağa yönəlik ənənəvi taktikasına sadiq qalıb formal bir görüş təşkil eləməklə işini bitmiş hesab edəcəkmi? Prezidentlərin qarşıdakı görüşü ərəfəsində əsas sual budur. Məhz bu sualın cavabından Qarabağ münaqişəsi zonasında vəziyyətin hansı səmtə - böyük sülh sazişi, yoxsa böyük müharibə istiqamətində inkişaf edəcəyi xeyli dərəcədə bəlli olacaq.

***

Prezidentlərin budəfəki görüşü ilə ilgili gözləntini bütün əvvəlkilərdən fərqləndirən başlıca cəhət də budur - apreldəki 4 günlük müharibənin diktə etdiyi yeni reallıq, yeni status-kvo. Yeri gəlmişkən, prezident Vladimir Putinin müşaviri, politoloq Sergey Markov ən əvvəl bu reallıqdan çıxış edərək demişdi ki, sülh prosesi “Kazan formulu” əsasında gedəcək və köçkünlər hətta bu ilin sonuna geri qayıda bilərlər.

Markovun dediyi proses başlayıbmı, gedirmi, yoxsa hər şey 2 apreldən öncəki axarına qayıdıb və Vyana görüşü də gözdən pərdə asmaq üçün qurulmuş bir fars olub? Bunu yəqin ki, prezidentlərin növbəti üçtərəfli danışıqlarından sonra biləcəyik. Bir şeyi əminliklə söyləmək mümkündür ki, Moskvanın konfliktin həllində dominant (açar) rolundan sui-istifadə limiti başa çatmaqdadır. Çünki indi məhz o dönəmdir ki, heç də həmişə pis sülh müharibədən yaxşı deyil.

Kreml dəhlizlərində yəqin ki, bütün bunların yaxşı fərqindədirlər. Fərqindədirlər ki, Azərbaycanı bundan sonra da quru və boş vədlərlə yol vermək zamanı keçib. BMT Təhlükəsizlik Şurasının Qarabağa dair qətnamələrini reallaşdırmaq, necə deyərlər, saatları nəhayət, Bakı vaxtına qurmaq zamanı çatıb.

Yəni əslində Rusiyanın özü də indi dilemma qarşısındadır. Əgər Moskva budəfəki unikal fürsəti də qaçırsa, böyük ehtimalla, Qarabağla, Azərbaycanla birgə bütövlükdə bölgəni və bölgəyə nəzarəti itirə bilər. Qarabağı qaytarıb Azərbaycanı qazanmaq vaxtı deyilmi?

***

Bəs, Rusiya üzləşdiyi dilemmanı necə çözəcək? Siyasi müşahidəçilərin bu xüsusda rəyləri maraqlı və diqqətçəkicidir.

Məsələn, sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynliyə görə, Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin qarşıdakı görüşü ilə bağlı bəzi razılaşma sənədləri, böyük sülh sazişinin ilkin variantları artıq Rusiya tərəfindən hazırlanır və bunun da əsasında Kazan prinsipləri dayanır (Axar.az). O, 5 rayon məsələsinin hələ də aktual olduğunu, bunun dəfələrlə Rusiya prezidenti və xarici işlər naziri səviyyəsində gündəmə gətirildiyini qeyd edib.

“Artıq etimad mühiti yaratmaq və bütövlükdə sülhyaratma prosesinə təkan vermək, status-kvonu dəyişmək üçün 5 rayonun geri qaytarılması yönündə danışıqlara başlamaq olar. Sonrakı danışıqların təməlini qoyacaq bu görüş daha ciddi və fərqlidir. Çünki Putin başa düşür ki, bu məsələdə bir tapılmasa, Azərbaycanı itirə bilər. Onun niyyəti Azərbaycanı Avrasiya İttifaqında görmək və Bakı ilə daha geniş inteqrasiyaya getməkdir. İnteqrasiyanın ilkin əlamətləri Şimal-Cənub dəmiryolu dəhlizidir. Bu, Rusiya iqtisadiyyatını canlandıracaq və dünya bazarı ilə əlaqələndirəcək ən mühüm nəqliyyat arteriyasıdır”- politoloq bildirib.

Onun sözlərinə görə, üstəlik, Rusiya son zamanlar təbii qazın bir hissəsini TANAP vasitəsilə Avropa bazarlarına çıxarmağı planlaşdırır: “Eyni proseduru İranla da həyata keçirmək mümkündür. Bu yerdə Azərbaycan, Rusiya və İran rəhbərlərinin üçtərəfli görüşü bölgədəki hadisələrə çox ciddi təsir göstərəcək. Azərbaycan burada əlavə siyasi dividendlər qazanacaq”.

Politoloq hesab edir ki, iyunun sonunda nəzərdə tutulan görüşdə Rusiyanın iradəsindən çox şey asılıdır və ən azı, 5 rayonun taleyini həll etmək mümkünləşə bilər: “Əgər belə demək mümkünsə, Rusiya ilə ciddi bazarlıq gedir. Bunun mərkəzində Azərbaycan torpaqlarının qaytarılması müqabilində Rusiya ilə daha sıx inteqrasiya dayanır. Moskva anlayır ki, bu dəfə də addım atmasa, Cənubi Qafqazdakı prosesləri idarə etmək artıq Rusiyanın iradəsindən xeyli kənarda qala bilər. Görünür, bunu proqnozlaşdıran Rusiya mümkün yollar axtarır. Güman edirəm ki, növbəti görüşdə mütləq nəticə olmalıdır”.

“Sankt-Peterburq görüşü baş tutsa, Azərbaycan Rusiyadan Ermənistanı sülhə məcbur etməyi tələb edəcək”. Bu sözləri isə deputat Asim Mollazadə deyib. Onun fikrincə, Rusiya öz siyasətindən istifadə edərək Ermənistanı Azərbaycan ərazilərindən çıxmağa və rayonlarımızın azad edilməsinə məcbur etməlidir: “Bu, sülh istiqamətində ən ciddi addım ola, əsas danışıqlar prosesinə təkan verə bilər. Hazırda isə Ermənistan heç bir beynəlxalq təşkilat tərəfindən təzyiqlə üzləşmədiyindən danışıqlarda ciddi addımlar atmır. Rusiya Minsk Qrupunun həmsədri kimi münaqişənin tezliklə həllində məsuliyyət daşıyır. Azərbaycanın istəyi beynəlxalq hüquq normalarının bərqərar olmasıdır. Sankt-Peterburq görüşü baş tutsa, Azərbaycan Rusiyadan Ermənistanı sülhə məcbur etməyi tələb edəcək. Rusiya bu görüşü təşkil etməklə belə bir təşəbbüsü üzərinə götürürsə, deməli, mütləq uğurlu bir nəticə olmalıdır. Putin ilk növbədə məhz BMT-nin qətnamələrinin icrasını ortaya qoymalıdır. Söhbət 5 yox, işğal altında olan 7 rayonun qaytarılmasından gedir. Vaxt daralır, Ermənistan bu qərarları icra etməsə, bölgədə çox ciddi problemlər yarana bilər”.

***

Əlavə edək ki, rəsmi Bakı görüş xətrinə görüşlərə lüzum görmədiyini bu günlər bir daha bəyan edib və belə təmaslardan əsas gözləntisini ortaya qoyub: bu görüşlər təmas xəttində nəzarət mexanizmlərinin gücləndirilməsi ilə paralel nəhayət, Azərbaycanın işğal altındakı ərazilərinin azad olunmağa başlaması üçün stimul yaratmalıdır. Əks təqdirdə, bu səviyyəli görüşləri bir daha təşkil eləmək tam mümkünsüz hala gələcək - paralel surətdə müharibə ehtimalı artacaq.

Beləliklə, uzağı, 17 günə aydınlaşacaq ki, Qarabağ fəallığı nəyə yönəlib - böyük sülh sazişinə, yoxsa böyük müharibə ssenarisinin reallaşmasına? Cəmi 17 kritik gün...

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016



# Xərcin siyahısını göndərsəz, bəsdir

Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Hələ bir neçə gün bu zülmü çəkəcəyik. Səhər zar-zor saat 7-də oyanacaq, yorğunluqdan süst düşmüş uşağımızı yuxudan oyadacaq, çantasına bu istidə yeyə biləcəyi tək-tük yeməklərdən qoyacaq və yollayacağıq adına təhsil ocağı deyilən, amma istisinə isinməyib, tüstüsünə kor olduğumuz məkana. Bəli, bu il qüvvəyə minən qanuna görə, uşaqlarımız iyunun ortasına qədər oxumalıdır. Əgər buna oxumaq deyilirsə.**

Təsəvvür edin, dərslikləri yığıblar, testləri yekunlaşdırıblar, proqram deyilən nəsnə çoxdan bitib. Amma deyirlər, gəlinməlidir, dərsdə iştirak etməli, müəllimənin, direktorun gözünə görünməlidir. Bəli, elə açar söz də budur - görünməlidir. Çünki bütün işimiz görüntüyə hesablanıb. Komissiya gələcək, yoxlayacaq deyə beyni də bədəni qədər yorğun düşmüş tifilləri sürgün misalı məktəbə çağırır, olan-qalan oxumaq sevgisini də beləcə zəhərləyir, onları kitab-dəftərdən iyrəndirirlər.

Halbuki bir az səmimi olsaq...? Bəli, olsaq görəcəyik ki, uşaqların böyük əksəriyyəti bura ancaq formal olaraq gəlir. Əslindəsə ölkədə de fakto pullu təhsil hökm sürür. İlin 9 ayı ailələrin büdcəsindən minimum 200-300 manat repetitor üçün ayrılır: bu, böyük qızın ingilis dilisi üçün 50 manat, bu balacanın hazırlığı üçün 50 manat... Nə anladım mən bu pulsuz təhsil həngaməsindən? Dediyim kimi, dərs qurtarıbsa, proqram yekunlaşıbsa, icazə verin heç olmasa valideynlərin boşalan cibi kimi uşaqların da beyni dincəlsin.

Demaqogiyaları da dinləyirəm. Deyirlər ki, qoyun uşaq məktəbə getsin. Əks halda neyləyəcək - küçədə oynayacaq... Bax, elə burda dayanmaq lazımdır. Adı üstündə - uşaq. Uşaqsa oynayar, əylənər, enerjisini bu yolla çıxarar, yıxılar, durar, dizi qanayar... Bütün bunların hamısını eləməsə o, uşaq deyil. Kibrit qutularına bənzər evlərdə uşaq böyüdürük. Səhər məktəb, sonra hazırlıq, sonra ev. Həftədə bir dəfə əyləncəyə, istirahətə apara biləndə özümüzü qəhrəman sayırıq. Bütün gün əllərində telefon, ipad, qarşılarında kompüter. Get-gedə yapon uşaqlarına bənzər yaratıqlar böyüdürük evlərimizdə. Bəli, indi bayıra çıxma, yeri gələndə avaralanma, şuluqluq eləmə vaxtlarıdır. Pediatriya deyilən elm də bunu təsdiqləyir: həddən ziyadə yüklənmə uşaqların zehnini korlayır. Bizə inanmırsız, elmə qulaq verin.

Elə bilirsiniz müəllimlər bu qərardan məmnundur? Uşaqları dərs otaqlarında qoyub, koridorda banka bağlamaqdan tutmuş, yorğam-döşək sırımağa qədər hər şeydən danışan müəllimələr üçün bu günlər zorunlu deyil? Pis-yaxşı hərə öz proqramını yekunlaşdırıb, indi məktəb otağına girmək türməyə girməyə bərabərdir onlar üçün də.

Təhsilin yeganə problemi budurmu, niyə bundan tutmusuz... deyir çoxbilmişlər. Yeganəsi deyil təbii ki. Amma bu, bütün problemlərin üstünə tökülən duz-bibərdir. Əgər məktəblərdə sözün böyük mənasında təhsil verilsəydi, heç kəs bu qədər etiraz etməzdi. Sadəcə, "düzəlmişdi hər yarağımız...", "Gözəl ağa gözəl idi..." tipli atalar sözlərinin gündəmə gəlməsi sırf bu yarıtmaz sistemə görədir. İndi valideynlərin gözündə məktəb binaları daha çox problem qaynağı kimidir. Mübaliğəsiz deyirəm, müasir dövrdə uşağına təhsil verən valideyn qəhrəman sayılır. Boğazından, əynindən, arzularından kəsir, daim tikan üstündə qalır. Və siz ona deyirsiniz ki, daha 15 gün bu əhvalda ol, bu əzabı çək...

Haqsızlıqdı, ciddi haqsızlıq... Petisiyaya, etiraz aksiyasına-filan gərək yoxdu. Təkcə tədris ili boyunca uşaqlarınızın hazırlıqlarına çəkdiyiniz xərcin siyahısını Təhsil Nazirliyinə göndərin, nə demək istədiyinizi anlayacaqlar.




# "Evrostroy-S" şirkətinə basqın oldu - səbəb və təfərrüatlar...

## Dünya çempionu şirkətdəki payını zorakılıqla geri almaq istəyir

**"Evrostroy-S" şirkətinə basqın olub. Bu barədə "Yeni Müsavat"a vəkil Ceyhun Yusifov məlumat verib. Vəkil deyib ki, şirkətin Yasamal rayonu, Şərifzadə küçəsi, 12 ünvanında yerləşən ofisinə kik-boksinq üzrə dəfələrlə dünya çempionu olmuş Rafael Qarayev bir neçə şəxslə basqın edib.**

"Rafael Qarayev vaxtilə həmin şirkətin sahiblərindən olan Seymur İsayevin mühafizəçisi olub. Sonradan onu şirkətdən uzaqlaşdırıblar. Onun ətrafında idmançı uşaqlar var. Həmin uşaqlar Rafael Qarayevdən əvvəl ora gəliblər. Deyiblər ki, şirkətin tikdiyi 350 kvadratmetrlik bir obyekt var, həmin obyekt onlara verilməlidir. İdmançılara məsləhət biliblər ki, tələb etdikləri obyektə sənəd təqdim etsinlər. Bundan sonra idmançılar oradan gediblər. Bir neçə saat sonra isə ora başqa adamlar gəlib, obyektə girmək istəyiblər. Lakin onların obyektə girmələrinə imkan verilməyib. Bundan sonra əraziyə Rafael Qarayev gəlib. O, obyektə girərək Bəxtiyar Təhməzovu vəhşicəsinə döyüb. Orada İlqar adlı işçi olub, o, Rafaeli sakitləşdirmək istəyib. Onu da vəhşicəsinə döyüblər. Hər iki şəxs hazırda 1 saylı klinikanın reanimasiya şöbəsindədirlər, vəziyyətləri olduqca ağırdır".

Vəkil bildirib ki, faktla bağlı Yasamal Rayon Polis İdarəsində araşdırmalara başlanıb. Yasamal Rayon Polis İdarəsindən "Trend"ə faktı təsdiqləsələr də, hazırda hadisə ilə bağlı saxlanılan şəxslərin olub-olmaması barədə məlumat verilməyib.

Qeyd edək ki, "Evrostroy-S" şirkətinin rəhbəri S.İsayevlə R.Qarayevin mübahisəsi illərdir ki, davam edir. Şəbnəm Tovuzlunun adı qarışan tikinti şirkətinin şəriklərindən biri də müğənninin 2-ci həyat yoldaşı Famil Xəlilovdur. F.Xəlilov Sankt-Peterburqdan Bakıya gələrək "Evrostroy-S" şirkətində şəriklər sırasına qatılana qədər şirkətdə S.İsayevlə R.Qarayev şərik olublar. Sonradan S.İsayevlə R.Qarayev arasında şəriklik münasibətləri F.Xəlilovun şirkətə şərik gətirilməsinə görə pozulub. Bu haqda "Yeni Müsavat"ın son sayında "Adı "MTN işi"nə qarışan müğənnidən "Yeni Müsavat"a şok açıqlama" (http://musavat.com/news/gundem/adi-mtn-ishine-qarishan-mugenniden-yeni-musavata-shok-achiqlama_354523.html) sərlövhəli yazıda geniş söhbət açılır. Həmin yazıda yer alan və adı çəkilən şəxslərin şəriklik münasibətləri, həmin münasibətlərin pozulmasına səbəb olan məqamları bir daha diqqətə çatdırırıq. Sitat: "Qaynağımız bildirib ki, A.Çovdarov S.İsayevin tikinti şirkətini himayə edib. A.Çovdarovun MTN əməkdaşı olan Təhmasib adlı köməkçisi S.İsayevin Nərimanov rayonu, Həsən Əliyev küçəsindəki 7 mərtəbəli ofisinin daimi qonaqlarından olub. S.İsayev şəriki Rafael Qarayevi A.Çovdarova sifariş edəndən sonra onu vəhhabi təriqətinə pul ötürmək, bu təriqətin ardıcılı olmaq suçu ilə MTN-ə aparıblar. Bir neçə günlük çək-çevirdən sonra şiə məzhəbinin ardıcılı olan Rəfael Qarayevdən S.İsyevlə şəriklikdən imtina etmə haqda vəd və 150 min manat pul almaqla azad ediblər. Akif Çovdarovun həbsindən sonra Famil Xəlilovla Seymur İsayev Azərbaycanı tərk ediblər. Bundan sonra Şəbnəm Əsədovanın sponsoru Bakıda çoxmərtəbəli binalar tikən şirkətin şəriklərindən birinə çevrilə bilib. Famil Xəlilovla Seymur İsayev Akif Çovdarovun həbsindən sonra Azərbaycanı tərk ediblər. Onların Türkiyədə məskunlaşdıqları haqda da məlumat var. Bildirilir ki, S.İsayev Türkiyədə otelçiliklə məşğuldur, onun "Sipark" adlı oteli var. Şəriklərin Azərbaycanda qazanılan pullarla Dubayda çoxmərtəbəli bina tikintisi ilə məşğul olduqları və Azərbaycana dönmək fikirlərinin olmadığı haqda da məlumatlar var. Qaynağımızın verdiyi məlumatlardan belə aydın olur ki, bunun üçün şəriklərin ciddi əsasları var. Belə ki, onların başına gətirilən xoşagəlməz hallarla bir çox iş adamları da üz-üzə qalıblar. Şəriki Rəfael Qarayevdən savayı S.İsayevlə bu və ya digər formada narazılığı olan şəxslər Akif Çovdarovun idarəsinə aparılıb. Orada təhdid olunub. Bir çox şəxslərin isə "Evrostroy"un Həsən Əliyev küçəsindəki 7 mərtəbəli binanın zirzəmisinin "qonağı" olduqları da bildirilir".

Mövzuya qayıdacağıq.

❑ E.MƏMMƏDƏLİYEV

# Şadlıq evləri və restoranlarda Ramazan "orucu"

## Müqəddəs ayda toy etmək olar, amma süfrə iftardan sonra açılmalıdır

**Artıq bir həftədir ki, müqəddəs Ramazan günlərini yaşayırıq. İslam dininin şərtlərinə əsasən bu ayda müsəlmanlar oruc tutur. Nəzərə çatdıraq ki, Ramazanda xeyli insan oruc tutmasa da, əgər bundan əvvəl spirtli içki qəbul edirdisə, bu günlərdə həmin zərərli vərdişlərdən uzaq durmağa çalışırlar.**



Bu da, təbii ki, bir çox ticarət obyektləri, restoran və şadlıq evlərinin büdcəsinə təsirsiz ötüşmür. Məlumdur ki, müqəddəs Ramazan ayında bir çoxları toy, şadlıq və ya əyləncəli məclislərini təxirə salır, bəziləri isə bu cür tədbirlər keçirsə də vaxtını iftardan sonraya müəyyənləşdirirlər. Bu cür məclislərdə də adətən süfrədə spirtli içki olmur.

Ramazan ayında şadlıq evlərində təmir və təmizlik işləri aparılır, restoranlarda isə...

Buna baxmayaraq bu cür şərtlərə əməl etməyənlərin kifayət qədər çox olduğu məlumdur. Bəzi restoran və şadlıq evlərində iftardan əvvəl məclislər keçirilir, süfrəyə içki gətirilir.

"Monte Karlo" şadlıq evinin inzibatçısı (adının yazılmasını istəmədi) bildirdi ki, müqəddəs ayda onlara toy üçün ümumiyyətlə müraciət edən olmur: "Bu ərəfədə şadlıq evində təmir işləri və qarşıdakı aylar üçün toy hazırlıqları aparılır".

"Oskar" şadlıq evində də əvvəlki illərdə olduğu kimi Ramazan ayında təmir və təmizlik işləri aparılır. Bu barədə şadlıq evinin Natiq adlı inzibatçısı "Yeni Müsavat"a açıqlamasında bildirdi.

Təkcə şadlıq evləri deyil, restoranlarda da bu ayda durğunluq yaşanır. Paytaxtın nüfuzlu restoranlarından biri olan "Manqalüstü" restoranının inzibatçısı Şahin Abdıyevin sözlərinə görə bu ayda demək olar ki, bütün əyləncəli və ad günləri məclisləri təxirə salınıb: "Bu sahədə boşluqdur. Həm də yaydır. Şəhər tipli restoranlar demək olar ki, yayda işləmirlər. Çünki insanlar daha çox təbiət qoynuna, dəniz kənarına, piknikə getməyi üstün tuturlar. Buna görə də restoranlar adətən oktyabr ayından sonra işləməyə başlayırlar".

Onun sözlərinə görə müqəddəs ayda spirtli içkilərə müraciət edənlər də xeyli azalıb: "Müştərilər daha çox ailəvi gələrək iftar edirlər. Spirtli içki sifariş edən demək olar ki, yoxdur".

Bəzi restoranlarda isə Ramazan ayında iftar məclisləri sifariş olunur.

Müqəddəs ayda toy və ya şadlıq məclisləri keçirmək günah sayılırmı?

Bəziləri müqəddəs ayda toy keçirmək və ya əyləncəli məclis qurmağın günah olduğunu düşünürlər. Dini ekspertlər isə bildirirlər ki, Ramazan ayında toy etmək, məclis təşkil etmək heç də günah deyil. Lakin toy məclislərinin iftardan sonra keçirilməsi, oruc tutanların da nəzərə alınması, süfrədə spirtli içkilərin olmaması tövsiyə edilir. Dindarlar qeyd edirlər ki, Ramazanda içkili toy mərasimi, əyləncəli məclislər keçirmək böyük günah hesab edilir. Həmçinin günorta yas mərasimlərində ehsan verilməsinin də doğru olmadığını bildirirlər. Dini ekspertlər ehsan süfrəsinin mütləq iftardan sonra, axşam açılmasını tövsiyə edirlər.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**İyun ayının sonunda Qarabağla bağlı daha bir mühüm görüş gözlənilir. Artıq dəqiqləşib ki, Rusiyanın təşəbbüsü ilə bu ölkədə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti üçtərəfli təması olacaq. Qarşıdakı görüşün Vyana danışıqlarının uğurlu davamı olub-olmayacağı ilə bağlı isə müxtəlif fikirlər mövcuddur.**



# "Rusiya Qərbin Qarabağ planının reallaşmasına imkan verməyəcək" - iddia

## Konfliktə həlledici təsir məsələsində Kreml şəriksiz hərəkət eləmək niyyətindədir; **rusiyalı ekspert:** "İndiki nəsillərin dövründə problemin nizamlanması mümkün deyil..."

Əksər təhlilçilərə görə, çox şey Rusiyadan və ilk növbədə də onun prezidenti Vladimir Putindən asılı olacaq. Rusiyanın "çamadanında" nələrin olduğunu isə hələ ki, dəqiq söyləmək çətindir. Bir şey dəqiqdir ki, apreldəki 4 günlük müharibədən sonra status-kvonun təcili dəyişdirilməli olmasını indi yəqin ki, Rusiya da anlayır.

Kremldə bilməmiş deyillər ki, əgər tezliklə konfliktin həllində hansısa irəliləyişə və ya müsbət dönüşə nail olunmasa, o zaman yeni və daha dağıdıcı müharibə qaçılmaz olacaq. Bu isə Moskvanın cari və perspektiv maraqlarına uyğun deyil.

Qarabağ məsələsinə təsir edə biləcək hadisələrdən başqa birisi Bakıda Rusiya, Azərbaycan və İran prezidentlərinin gözlənilən zirvə görüşüdür. Həm bu görüş, həm də Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin gözlənilən təmasının xüsusilə də Qarabağ probleminin həll perspektivi üçün faydalı olacağını düşünənlər az deyil. Əksini təxmin edənlər də var.

***

"Hələlik Bakıda üç ölkə prezidentinin planlaşdırılan görüşündə sıçrayış olacağını söyləmək çətindir. Yəqin ki, söhbət daha çox niyyətlərdən və palanlardan gedəcək. Ancaq sonradan bu "üçlü" əməkdaşlığın genişləndirilməsi baxımından yaxşı prespektivlərə malik olacaq. Qarabağda müharibə isə bu planlara mane ola bilər". Musavat.com-un məlumatına görə, bu barədə rusiyalı ekspert, Moskvadakı Strateji Analiz İnstitutunun direktoru Andrey İvanovun vesti.az-dakı məqaləsində bildirilir.

Onun sözlərinə görə, Qarabağda müharibə Rusiya ilə Ermənistan arasında gərginliyi artıracaq. "İrəvanda Qərb qrantlarına yaşayan xeyli sayda politoloq isə bəhanə axtarır ki, Moskvanı İrəvana münasibətdə hərəkətsizlikdə suçlasınlar. Müvafiq şəkildə Avrasiya Birliyi və KTMT layihələri də təhlükə altına düşəcək" - ekspert qeyd edib.

Onun qənaətincə, Qarabağda müharibə Azərbaycanın cənub qonşusu İrana az təsir edəcək, ancaq Azərbaycansız Rusiya-İran ortaq layihələrindən danışmaq da mümkün olmayacaq. "Nəzərə alsaq ki, indiki nəsillərin dövründə Qarabağ probleminin həlli mümkün deyil, o zaman hamı çoxdan döyəclənmiş bir yolla getməyə məhkumdur: yəni nəticəsiz danışıqları davam etdirmək" - ekspert vurğulayıb.

Politoloq hesab edir ki, Rusiya, Azərbaycan və İran arasında ortaq iqtisadi layihələr ətraf ölkələr, o cümlədən Türkiyə, Ermənistan və Gürcüstan üçün cazibə mərkəzi ola bilər: "İqtisadi məqsədəuyğunluq ölkələr arasında bir çox inzibati əngəllərin götürülməsinə gətirəcək. Müvafiq şəkildə qonşu ölkələrin sakinlərini bir-birini başqa cür qəbul edəcəklər. Bir var, mühasirə şəraitində olan düşərgədə yaşayasan, bir də var açıq sərhədlərin üstünlüklərindən istifadə edəsən, qonşularla əməkdaşlıq hesabına yaxşı qazanmaq imkanları əldə edəsən. Bir də baxacaqsan ki, bir neçə ildən sonra konflikt əvvəlki tək dalan vəziyyəti təəssüratı bağışlamayacaq. Misal üçün, Dağlıq Qarabağ və Ermənistan sakinlərinə sərf edəcək ki, azərbaycanlılar qayıdıb öz yurd yerlərində otursunlar, öz şirkətlərinin nümayəndəliklərini açsınlar. Əgər regionda yalnız etnik əlamətinə görə kəndlər olacaqsa, o zaman münaqişə sonsuzadək uzanacaq. Yox, biznes-mərkəzlərlə birgə iri şəhərlər peyda olacaqsa, situasiya yaxşıya dəyişəcək".

Analitikə görə, prezidentlərin Bakı və Sankt-Peterburq görüşlərində Rusiya prezidenti Vladimir Putin çətin ki, prinsipial yeni bir şey təklif eləsin. "Bununla belə, region iqtisadiyyatının inkişafı üzrə işgüzar təklifləri gözləməyə dəyər".

***

Deputat Zahid Oruc isə hesab edir ki, Rusiya Qarabağ məsələsini yalnız siyasi yolla həll edə bilməyəcək, Moskva Bakıya hərbi yolla da dəstək verməlidir ki, problem öz həllini tapsın. Əliyev, Putin və Sərkisyanın Qarabağ məsələsi üzrə gözlənilən görüşünü şərh edən deputat bir sıra önəmli məqamlara toxunub (Axar.az): "Dördgünlük müharibə zamanı real olaraq iki dövlət arasında silahlı münaqişənin genişlənməsini durduran yeganə tərəf Moskva oldu. Prosesləri yaxşı görən Qərb fərqində idi ki, Strasburq və ya Brüsseldən gələn zəng hesabına Füzulidə tank və toplar susası deyil. Putinin buna gücü çatdı, onun təsir gücü Bakı və İrəvanda qəbul olunub. Ancaq fərqli reaksiyalar yalnız 5 apreldən başlandı. İrəvanda Rusiya əleyhinə aksiyalar meydana çıxdı və nə qədər generalların poqonları sökülsə də, əlləri Putinə çatmadıqlarından siyasi müharibəni dərinləşdirdilər. Bu, nəticə etibarilə beynəlxalq dairələr tərəfindən fəal şəkildə danışıqların bərpasını əngəlləyə bilmədi. Vaşinqton avtomatik olaraq prosesdən kənarda qalmamaq üçün Lavrov-Kerri danışıqlarından sonra tərəfləri Vyanada bir araya gətirə bildi. Hər halda Rusiyanın buna nə üçün getdiyini cavablandırmaq çətin deyil. Yəqin Suriya məsələsində də eynən ABŞ-ın hansısa güzəştli addımları baş verib və indi də sanki iki region arasında olan məsələlərdə beynəlxalq güclərin sövdələşmələri özünü göstərməkdədir. Bununla bərabər, Lavrov Vyanadan masa üzərində müzakirə olunacaq sənədin məhz Rusiya planı olduğunu gizlətmədi".




Deputata görə, hazırda Qərb tərəfindən iki hədəfə doğru istiqamətlənmiş addımlar atılmaqdadır: "Birincisi, Ermənistanın anti-Rusiya ovqatından istifadə edərək İrəvanı öz tərəflərinə çəkmək istəyirlər. İkincisi, Azərbaycan enerji cəhətdən Qərbin tərəfdaşı olsa da, siyasi cəhətdən Rusiya mövqeyini qəbul etdiyi üçün Bakıya müəyyən təzyiq göstərmək istəyirlər. Hətta bir az da irəli gedib bölgəyə Anjey Kaspşik vasitəsilə özlərinin müşahidə missiyasını göndərməyə çalışırlar. Yəqin ki, onların hamısı kəşfiyyatçılardan ibarət olacaq. Yəni sülhməramlı qüvvələrə bərabər gedişlər etmək istəyirlər. Ermənilər isə buna razıdırlar. Əsas niyyət - bir tərəfdən İranı, o biri tərəfdən Qərbi bu prosesə qoşmaqla Rusiyadan asılılığı azaltmaq, çoxvektorlu bir siyasətə keçməkdir. Ancaq Ermənistan qətiyyən nə İranın, nə də Qərbin fonunda Azərbaycan kimi balanslı siyasət qura bilməyəcək".

Z.Oruc iyunun sonunda hərtərəfli həll üçün Parisdə aparılacaq danışıqlardan öncə Putinin tərəfləri görüşdürmək planından da söz açıb: "Qafqazlardakı davanın bütün keçmiş tarixinə rəğmən, kim regionun gələcəyində iştirak etmək istəyirsə, Qarabağ məsələsinin həllində də o rol oynamalıdır. Əks halda, bu bölgədən siyasi və iqtisadi cəhətdən yararlanmaq çox çətin olacaq. Ona görə də keçmişdə bölgəni münaqişələr vasitəsilə idarə edirdilərsə, indi isə əksinə, həll məsələsi işə düşəndə hər bir dövlət çalışır ki, planı o versin. Təbii, Qərb onun fərqindədir ki, Putin tərəfindən irəli sürülən model həyata keçsə, Azərbaycan Avropaya çox da ehtiyac duymayacaq. Putin bilir ki, Qarabağ məsələsində əlini qızdırmaq istəyən Avropa dairələrinin qarşısını kəsməyin ən yaxşı yolu prezidentlərin görüşünü keçirmək, xalqları gələcək sülhə hazırlamaqdır".

Z.Oruc əmindir ki, Putinin iştirakı ilə baş tutacaq görüş qətiyyən Azərbaycanın maraqlarına zidd deyil: "Bu görüşün məqsədi açıq şəkildə Qərbi kənarlaşdırmaq, Putinin planının hər üç tərəfin xeyrinə olduğuna inandırmaqdır. Ən azından Rusiya bölgədə əlavə konfliktlər yaşamaq istəmir. Çünki Qarabağda ocaq yananda bu od dərhal Şimali Qafqazı da bürüyür. Qarabağ məsələsinin Rusiyanın rəhbərliyi ilə həlli Moskvanın yüz illər ərzində bölgədəki savaşları törətdiyinə görə qazandığı addan sınaq üçün bir fürsətdir, qısası, Rusiyanın xilaskar obraza ehtiyacı var. Ona görə də Putin imkan verməyəcək ki, Qərbin planı Qarabağ məsələsində qəbul olunsun. ABŞ da təbii ki, bundan şad olmayacaq və bu planı pozmağa çalışacaq".

Sankt-Peterburq görüşünə toxunan deputat deyib: "Bu görüş reallaşacağı təqdirdə Sərkisyan öz xalqına hansı sülhün lazım olduğu bəyanatını verib, yəqin ki, hakimiyyətdən getməli olacaq. Ancaq Petrosyan, Köçəryan və Sərkisyan o həqiqəti dərk etməlidirlər ki, müvəqqəti işğal nəinki dövlət qurmağa imkan vermir, onu regional və beynəlxalq aləmdə qəbul etdirmək məsələsi daha mühümdür. O üzdən Rusiya elə bir həll modeli meydana çıxaracaq ki, Qərbi bölgədən qova bilsin və Qafqazın tək nüfuz qüvvəsinə çevrilsin".

***

Bu modelin nədən ibarət olduğunu, ümumiyyətlə, onun mövcud olub-olmadığını isə prezidentlərin növbəti görüşündən sonra biləcəyik.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Bu gün "Sovetski" sakinlərinə verilən möhlət bitir

## Bəzi sakinlərlə razılıq əldə olunmayıb; amma icra orqanları evləri sökməkdə israrlıdır

**Bakının "Sovetski" kimi tanınan məhəlləsinin Abbas Mirzə Şərifzadə küçəsində aparılan söküntü işləri yekunlaşmaq üzrədir. İyunun 13-də (bu gün) həmçinin "Sovetski" sakinlərinə evlərini tərk etmək üçün verilən möhlət də bitir.**

Sakinlərin musavat.com-a verdikləri məlumata görə, onlara evlərini tərk etmələri üçün 13 iyuna qədər vaxt qoyulub. Əks təqdirdə mənzilləri içərisindəki əşyalarla birlikdə uçurulacaq. Lakin sakinlər bununla razılaşmırlar. Onlar yenə də evlərindən çıxmayacaqlarını bildirib, mübarizədən çəkilmirlər.

"Sovetski"dəki hazırkı vəziyyətlə bağlı "Yeni Müsavat"a məhəllədə qədim tarixə malik olan binada yaşayan Faiq Əliyev məlumat verib. Öncə qeyd edək ki, Faiq Əliyevin yaşadığı bina haqqında mətbuat çox yazıb. F. Əliyevin açıqlamasına görə, 1895-ci ildə tikilmiş bina Şirinbəy adlı şəxsə məxsus olub. 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulan zaman Şirinbəy həyat yoldaşı Zəminə xanımla birlikdə bu mülkü qoyaraq ölkəni tərk edib. Onlardan sonra burada rus ailəsi yaşayıb. Daha sonra mülk Faiq Əliyevin ailəsinə satılıb. Bina 121 il öncə tikilsə də, yaşamaq üçün tam yararlı vəziyyətdədir. F. Əliyev bildirib ki, mübarizələrinə baxmayaraq, artıq həmin binanın da söküntüsünə başlanılıb: "10 iyun tarixində evimizin üzərində tarixi daşları sökməyə başladılar. Təbii ki, bu, evin özünə də ziyan verir. Səhər açılan kimi gəlirlər ki, evi sökürük. Nə qədər mane olmağa çalışsaq da, söküntü işlərinə davam edirlər. Bazar günü də gəldilər ki, binanın üzlüyünü çıxarırıq. Dedim ki, heç olmasa bu gün istirahət günüdür, imkan verin evimizdə dincələk. Neçə vaxtdır ki, kommunal xətlərimizi də kəsiblər. Bu üsulla bizi çıxarmaq istəyirlər. Deyirlər ki, ev yararsızdır. Necə yararsızdır ki, bunlar iki gündür işləyirlər, bir dənə sütunu çıxara bilmirlər. Bütün bunlar göstərir ki, ev heç də yararsız deyil. Yaşamağa tam yararlı formadadır".

Mətbuatda yayılan məlumata görə, kiçik ölçülü evləri olan "Sovetski" sakinlərinin daha bir qismi mənzillə təmin olunub. Anspress-in yaydığı məlumatda qeyd olunub ki, Yasamal rayon İcra Hakimiyyəti Koroğlu Rəhimov küçəsində yenidənqurma və əsaslı təmir işləri aparılan binada mənzillərin bölünməsi məqsədilə püşkatma həyata keçirilib.



Məlumata görə, püşkatma "Sovetski"də az sahəli mənzillərdə yaşayan 113 sakin arasında olub. İyunun 13-də (bu gün) isə həmin sakinlərə mənzillərinin açarları təqdim olunacaq.

Lakin Abbas Mirzə Şərifzadə küçəsində yaşayan sakinlər bildirdilər ki, bu məsələnin onlara heç bir aidiyyəti yoxdur. F. Əliyev: "Həmin evlərin bizə heç bir aidiyyəti yoxdur. Bizə bununla bağlı heç nə demirlər. Bu evlər "Sovetski"nin digər yerlərində yaşayan sakinlərə veriləcək. Hansı ki, onlarla daha öncədən bununla bağlı razılıq əldə olunub".

"Tarix-mədəni və təbii irsi qoruma" QHT-nin ictimai nəzarət komitəsinin rəhbəri Aytəkin İmranova da "Yeni Müsavat"a "Sovetski"dəki vəziyyətlə bağlı danışıb. O bildirib ki, məhəllədə söküntü işləri fasiləsiz davam etdirilir: "Məhəllədə son qalanlar onlardır ki, həmin sakinlərə ev verməli idilər. İndi də deyirlər ki, kirayəyə çıxın, onun pulunu verəcəyik. Sakinlər də bununla razılaşmırlar. Elə sakin var ki, işi məhkəmədə olduğu halda evini söküblər. Şeyx Hacı Allahşükür Paşazadəyə müraciət etmək istəyirik ki, Ramazan ayında insanlara bu cür əziyyətlər yaşadılır. Camaat oruc tutur, namaz qılır, bunlar gəlib suyu kəsirlər. Adam heç dəstəmaz almağa belə su tapmır. Tarixi abidələri də sökürlər. İnsanlarla deyərdim ki, psixoloji müharibə aparırlar. Məndə olan məlumata görə, sakinlərə bildiriblər ki, təcili evinizdən çıxın və biz sizə kirayə mənzil pulunu verəcəyik, sizin üçün bina tikilən zaman orada yerləşdirmə aparacağıq".

Bu gün sakinlərə verilən möhlət bitsə də, göründüyü kimi hələ də onlarla müvafiq qurumlar arasında razılıq əldə olunmayıb.

Qeyd edək ki, Nazirlər Kabineti "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" qərarında etdiyi dəyişikliklə Yasamal rayonu, "Sovetski"də 23 yaşayış və qeyri-yaşayış obyektlərini "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"ndan çıxarıb. Bu qərara ictimai etirazların olmasına baxmayaraq, artıq Murtuza Muxtarov küçəsi 83-də yerləşən tarixi hamam və dramaturq A.M. Şərifzadənin evi sökülüb. O cümlədən M.A. Əliyev küçəsində, 1916-cı ilə aid 1, 1900-cü ilə aid 2 və 1890-cı ildə tikilən 2 yaşayış evi sökülüb. Bundan başqa S. Rəhimov küçəsi 44-də yerləşən 1900-cü ildə tikilən yaşayış evi də sökülüb.

❑ **Əli RAİS**

# Alıcıların sağlamlığına qəsd edənlər - məhsul üzərində "tarix oyunu"




## Satışdakı bir sıra malların üzərindəki saxta yararlılıq müddətlərinin arxasındakı acı gerçəklik; istehlakçıların aldadılmasında təkcə istehsalçılar cavabdeh deyil...

**Bakıda məhsul istehsalçıları müxtəlif yollarla alıcıları aldatmağa, daha çox qazanc əldə etməyə çalışırlar. Ciblərini doldurmaq marağı göstərir ki, onlar istehlakçıların həyatını hətta riskə atmaqdan belə çəkinmirlər. Bəzi sahibkarlar keyfiyyətsiz məhsulları satışa çıxardığı kimi, bəziləri də məhsulların üzərində göstərilən istehsal tarixini bilərəkdən saxtalaşdırır.**

Belə hallar artıq son zamanlar tez-tez müşahidə olunmağa başlayıb. Əsasən də saxlama müddəti az olan məhsullar üzərində. Məsələn, süd və süd məhsulları, lavaş, yumurta və s. Bu məhsulların mağaza vitrinlərində saxlama müddəti maksimum 10-15 günə qədər olur.

Hər bir alıcı məhsul alarkən əsas diqqət etdiyi təbii ki, məhsulun istehsal tarixi olur. Vaxtı keçmiş məhsulların mağazalarda satılması halları da dəfələrlə istehlakçılar tərəfindən aşkarlanıb. Alıcılar aldanmamaq üçün məhsulun istehsal tarixinə və saxlama müddətinə diqqət yetirir. Ancaq son zamanlar müşahidə olunanlar göstərir ki, alıcılar nə qədər diqqətli olsa da məhsul istehsalçılarının fırıldaqlarından xilas olmaq mümkünsüzdür. Belə ki, məhsulların üzərindəki yararlılıq tarixlərin saxtalaşdırılması, köhnə tarixin silinib yenisi ilə əvəz olunması və s. kimi hallara yol verilir.




Mağazalarda elə məhsullar var ki, onların üzərində göstərilən istehsal tarixi hələ bir gün sonradan başlayır. Yəni məhsul hazırda mağazadadır, amma sabah "istehsal olunacaq"? Bu cür halları bir neçə dəfə ictimailəşdirmişik. Bir müddət əvvəl yas mərasimlərindən birində süfrəyə düzülən "Uzun ömür" Süd Məhsulları MMC-yə məxsus dovğanın üzərində istehsal tarixi 14 dekabr göstərilmişdi. Lakin məhsul masaya qoyulanda hələ dekabrın 13-ü idi.

Belə hallardan biri ilə də bir neçə gün əvvəl Azərbaycan Dəmiryolları ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli qarşılaşıb. Mağazadan lavaş alan Anar Nəcəfli məhsulun istehsal və saxlama müddəti ilə bağlı göstərilən tarix qarşısında çaşqın qalıb. Belə ki, iyunun 7-də mağazadan lavaş almaq istəyən A.Nəcəfli götürdüyü məhsulun üzərində istehsal tarixinin 8.06.2016-cı il olaraq göstərildiyini görüb.

Məsələyə nəzarət etməli olan İqtisadiyyat Nazirliyi alıcıları diqqətli olmağı və məhsulun istehsal tarixinə mütləq şəkildə baxmağı məsləhət görür. Lakin görünən budur ki, bu diqqət də kifayət etmir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov məsələ ilə bağlı musavat.com-a bildirdi ki, bu cür hallar İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin və digər aidiyyəti qurumların nəzarətsizliyindən irəli gəlir: "Belə məhsulları mən daha çox yas mərasimlərində görürəm. Hətta istehsal tarixinə fevralın 30-u yazanlar da var - baxmayaraq ki, belə tarix yoxdur. Bu da o deməkdir ki, Azad İstehlakçılar Birliyi pis işləyir. Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti 144 ştatla 9 mərtəbəli binada oturur. Çörəyin qiymətinin 10 qəpik qalxmasının qarşısını almaqla fəxr edir, amma öz öhdəsinə düşən işləri görmür. Ölkədə mükəmməl istehlakçı siyasəti yox dərəcəsindədir. Hökumətin biznes şəraiti üçün belə bir mühit yaratdığı halda sahibkarlar bundan sui-istifadə edir. Təəssüflər olsun ki, bununla da istehlakçıların hüquqları kobud şəkildə pozulur".

Təşkilat rəhbəri deyir ki, bu cür hallarla rastlaşan istehsalçılar AİB-ə və dövlət xidmətinə məlumat verməlidir: "Belə olan halda istehlakçı Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti 195-2 çağrı xidmətinə xəbər verməlidir. Əsgər həmin telefona cavab verilərsə, şikayətini bildirməlidir. Və ya 012-4-41-28-33 nömrəsinə zəng edərək bizə məlumat versinlər. Biz də öz növbəmizdə bununla bağlı dövlət orqanları qarşısında məsələ qaldıraq".

❑ **İ.MURADOV**

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016



# Ölkəyə turist gəlir, biz isə onları tanımırıq

## Bakı şəhərində gəzən əcnəbilərə bələd olmağın yolları - hansı millət xarici ölkədə necə davranır?

**Şəhərin mərkəzinə çıxanda sizin də diqqətinizi xarici turistlər çəkir? Xüsusən də İçərişəhərdə, əllərində kameralarla, nabələd baxışlarla ətrafı seyr edənlərin xarici qonaq olduğunu anlamaq üçün bir neçə saniyə bəs edir. Doğrudur, indi ölkəmizdə keçirilən beynəlxalq yarış öncəsi onların sayı çox olmalı idi. Hətta deyərdim ki, şəhərin mərkəzi onların əlindən "qaynamalı" idi, amma...**

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev isə iddia edir ki, son 10 il ərzində ölkəmizə gələn turistlərin sayı 5 dəfədən çox artıb. Ə.Qarayev turizmin Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda prioritet sahələrdən biri olduğunu bildirib.

Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) Azərbaycana gələn turistlərin sayında əsaslı artım baş verib.

Mədəniyyət və Turizm Nazirliyindən verilən xəbərdə deyilir ki, bu ilin aprel ayında BƏƏ-dən ölkəmizə səfər edən xarici vətəndaşların sayı 2,5 min nəfər təşkil edib ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 27 dəfə çoxdur. 2015-ci il ərzində Fars körfəzi ölkələrindən Azərbaycana gələn xarici vətəndaşların sayında 16.1% artım baş verib. 2016-cı ilin ilk 4 ayı ərzində gələn xarici turistlərin sayı 6 624 nəfər, 2015-ci ilin müvafiq dövrü ərzində gələn xarici turistlərin sayı isə 363 nəfər olub.

Nazirlikdən bildiriblər ki, bu ilin 1 fevral tarixindən etibarən Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Yaponiya, Çin, Cənubi Koreya, Malayziya və Sinqapur vətəndaşlarına Azərbaycana bütün beynəlxalq statuslu hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsi təmin edilib.

### Ən çox turist cəlb edən ölkə Fransadır

Dünyanın ən çox turist cəlb edən ölkələri məlum olub. Türkiyə mətbuatının məlumatına görə, bu ölkə turistlərin gəlmə sayı baxımından bir çox böyük dövlətləri geridə qoyub. Dünyada ən çox turist çəkən ölkə Fransadır. Bu ölkəni 1 il ərzində 81 milyon 400 min turist ziyarət edib. İkinci yerdə 62 milyon 700 min turistlə ABŞ gəlir. 57 milyon 600 min turistlə Çin 3-cü, 56 milyon 700 min nəfərlə İspaniya 4-cü sırada yer alıb. 46 milyon 100 min turistlə İtaliya 5-ci pillədə yer alarkən, Türkiyə ölkəsinə gələn 34 milyon turist sayı ilə dünyada 6-cı sırada dayanıb...

İndi keçək girişdə haqqında danışdığımız turist psixologiyası, turistlərə yanaşma tərzindən. Türkiyənin "Sabah" qəzeti turizm, turistlərlə bağlı dərin təcrübənin də vermiş olduğu inamla dünya turistlərinin özəllikləri ilə bağlı maraqlı bir araşdırma hazırlayıb.

Siyahıda Türkiyə turizminə verdiyi önəmli qatqılara görə önəmli yer tutan bizlər, azərbaycanlı turistlər də yer alıb. Oxuyun, bundan sonra tətilə çıxanda, ölkənizə gələn qonaqları təhlil edəndə yan-yörənizdəki turistlərin özəlliklərini, bunun hansı xalqın keyfiyyəti olduğunu bilin!

Ondan başlayaq ki, bəzi insanlar tətilə çıxanda "içindəki uşağı" da ortaya çıxarır. Yəni olduğu kimi davranır. Amma heç də hər kəs yox. Sən demə, turizm məkanlarında da diplomat kimi davrananlar az deyil. Diplomatik çeşidliliyi göstərən ən yaxşı turistlər yazımızda bəlkə siz də özünüzü tapa bilərsiz.

### Bunun içki düşkünü var, millətçisi var, aqressivi var - hər turist bir hekayədir

Beləliklə, qəzet əcnəbi turistləri belə siyahılaşdırıb:

10. Kanadalılar

Xüsusi turist özəlliyi: Kanada bayrağıdır. Az qala hər şeyin üstündə bu bayrağı görmək olar: çantalar, papaqlar, köynəklər, şortiklər. Bəziləri Kanada bayrağını qoluna döymə kimi də vurdurur. Təriflənməyə dəyər vərdişləri: Amerikan olmamaları. Cənubda olan qonşularının bütün müsbət cəhətlərini alıb, mənfi xüsusiyyətlərindən qurtulublar. O qədər nəzakətli və səmimi insanlardır ki, milli komandalarının sizin ölkənizə qalib gəlməsini belə arzulaya bilərsiniz. Qüsurları: Hər fürsətdə amerikan olmadıqlarını ifadə etmələri. Sanki İraq döyüşünü başlayan onlarmış kimi özlərini hər şeyin xaricində tutmağa çalışırlar.

9. İngilislər

Təyinedici turist xüsusiyyətləri: Qırmızı rəng. Öz ölkələrində Günəş işığına həsrət olduqları üçün, getdikləri yerlərdə özlərini ən güclü Günəş şüalarına əmanət edirlər.

Təriflənməyə dəyər davranışları: ingiliscə bilirlər və Günəşin altında çox asan yana bilirlər. Bir pivəyə qonaq etsəniz, hətta bunu təklif kimi səsləndirsəz, ömür boyu yoldaşınız ola bilərlər. Qüsurları: ingilislər üçün spirt və tətil bir bütündür. Yerli dili bilmədikləri üçün ingiliscə yüksək səslə danışarlar.

8. Çinlilər

Təyinedici turist xüsusiyyəti: əsla müstəqil səyahət etməzlər. Qruplar halında dövrlər edərlər və hər zaman başlarında bir rəhbər olur. Təriflənməyə dəyər vərdişləri: Qabaqlarına qoyacağınız hər şeyi sevə-sevə yeməyə hazırdırlar və bunları yerli xalq kimi bəyənərlər. Və pul mövzusu. Dünya iqtisadi böhran yaşayarkən çinlilər hələ də dəli kimi pul xərcləyir. Qüsurları: çinlilər hələ turizmdə yeni-yeni qloballaşır. Tarixi sahələrə ad yazmaq və hər yerdə siqaret çəkmək kimi cəhətləri onları dərhal gözdən salır.

7. Avstraliyalılar

Təyinedici xüsusiyyətlər: Avstraliyalılar şortik, başmaq və səndəl geyən, iqlimə və ya mədəni həssaslıqlara önəm verməyən turistlərdir. Təriflənməyə dəyər vərdişləri: məşhur qayğısız rəftarları. Viza alsalar, hər halda Əfqanıstanda şortik geyinib, tanımadıqları insanlara "gözəl saqqal dostum" deyə-deyə ətrafda fırlanacaqlar.

Qüsurları: yığıncaqları və qısaltmalarla danışmaları. Öz aralarında asan anlaşırlar, amma hər iki sözdən birini qısaltmaları başqaları tərəfindən çox çətin anlaşılmalarına səbəb olur.

6. İtalyanlar

Təyinedici xüsusiyyətləri: italyanların marka sevgisi onları xaricdə də tək buraxmır. Qollarında Gucci çantalar və yüksək dikdaban ayaqqabılarla Machu Picchu'yu axtaran birini görsəniz, bilin ki, o, italyandır. Təriflənməyə dəyər vərdişlər: Mövzu italyanlarsa ətrafda yaxşı qəhvə tapa bilərsiniz. Ayrıca restoranda qarşı masanızda sizdən daha çox əylənən bir qrup varsa, onlar italyanlardır.

Qüsurları: çox israrçıdırlar və yoldaşlarının düşüncələrinə əhəmiyyət vermirlər. Bundan başqa, turist kimi ərköyünlükləri də xeyli bezdiricidir.

5. Yaponlar

Təyinedici xüsusiyyəti: fotoaparat daşımaları. Amma indi telefon daşıyan hər kəs üçün bu xüsusiyyət keçərlidir.

Təriflənməyə dəyər vərdişləri: macərasevər yaponlar da qrup halında gəzirlər. Ta ki, getdikləri yerdə turistik məkan qurtarana qədər. Qüsurları: çəkdirdikləri hər şəkildə barmaqlarıyla V şəkli göstərmələri. Bu, guya ki, ingiliscə "victory" (qələbə) mənasını verir.

4. İsveçlilər

Təyinedici xüsusiyyətləri: uzun, sarışın, rahat və sağlam. İsveçliləri fərq etmək çox asandır, amma daha uzun və parlaq olan norveçlilərlə qarışdırmamaq lazımdır. Eləcə də daha-daha uzun və parlaq olan danimarkalılarla.

Təriflənməyə dəyər vərdişləri: Çox rahat rəftarlarıyla, Avropanın kaliforniyalıları kimidirlər. Nəzakətlidilər. Çimərlik paltarları içində ən gözəl görünən insanlardır.

Qüsurları: geridə qalmış gözünə soxmağa çalışırlar.

Nəhayət, ruslar:

Təyinedici xüsusiyyətləri: qadınlar daha çox qüsursuz bədən quruluşu, kişilər isə içkiyə meyllilikləri ilə diqqət çəkirlər. Heç bir kompleksləri yoxdur. Qızlar çox rahat şəkildə dostluğa meyl edir. Ailəli turistlər isə uşaqlarına xüsusi önəm verir. Təriflənməyə dəyər vərdişləri: yeməklə bağlı xüsusi kaprizləri olmur. Daha çox öyrənməyə, yeni dadları, yerləri kəşf etməyə maraqlıdılar.

Qüsurları: başqa turistləri, xüsusən də qeyri-avropalıları aşağılama meyli güclü hiss insanlara olduqca dözümsüz münasibət göstərirlər.

3. Amerikanlar

Təyinedici xüsusiyyəti: çempionata qatılmağı bacara bilməyən professional qolfçular kimi geyinirlər.

Təriflənməyə dəyər vərdişləri: yüksək səslə danışıb davamlı etiraz edirlər. Amma yenə də dünyanın ən açıq fikirli və mədəni fərqliliklərinə hörmət edən insanlarıdır. Bəxşiş verməkdə isə əvəzsizdilər. Hətta o qədər ki, üzünə baxdığınız üçün belə bəxşiş ala bilərsiniz. Qüsurları: Onlara elə gəlir ki, amerikanlı olmaq "hər şeyi edə bilərəm" mənasını verir.

2. Almanlar

Təyinedici xüsusiyyəti: sarı saçları, piyədən yaranan şiş göbəyə heyranlıqları və atletik görünmə səyi. Təriflənməyə dəyər vərdişləri: almanlar açıq havanı çox sevərlər və özlərini Avropa çimərliklərindən daha uzağa aparacaq mədəniyyətlərə qarşı maraq duyarlar. Ağıllı, hörmətli və yoldaş səvəndilər. Nə qədər çox içsələr də, bunun öhdəsindən gələ biləcək bədənləri var. İçib özünü itirənlərdən deyillər. Qüsurları: hədsiz dərəcədə xırdaçıdılar.

Çililər

Təyinedici xüsusiyyətlər: Sakit ölkənin turistləri həqiqi turistlərdir. Özləri olduğu qədər getdikləri yeri də əyləndirirlər. Təriflənməyə dəyər vərdişləri: nə qədər çətinliklə qarşılaşsalar da, heç vaxt şikayət etmirlər. Qüsurları: çox rahat və komplekssizdilər. Və bunu çox şişirdilmiş şəkildə hamının olunur. Getdikləri yerdə dominantlığa meyl etmələri, bəzən yersiz insident yaratmaları bundandır.

Və gəldik, Azərbaycan oxucusu üçün ən maraqlı sayılacaq rəyə. Yəni özümüzə. Qəzetin yazısında azərbaycanlı turistlərlə bağlı deyilən rəylər stereotiplərdən uzaq, konkret rəy sorğusunun nəticələrinə əsasən hazırlanıb. Ümumiyyətlə, bütün millətlərdən olanlar barədə yazılanları otellərdə, turizm obyektlərində keçirilən sorğunun nəticələrinə əsasən hazırlayıblar. Beləcə, azərbaycanlı turistlər:

Təyinedici turist xüsusiyyətləri: daha çox kompleksli və qeyri-tətil geyimləri ilə diqqət çəkirlər. Dənizə üzməyə də qollarındakı saatla gedənlər var. İstirahətə ailəvi çıxmaları onları səciyyələndirən cəhətləridir.

Təriflənməyə dəyər vərdişləri: Problem yaradan turist kateqoriyasına daxil deyillər. İçkili halda digər turistlərə narahatçılıq yaratmaq, habelə yeməkdən, hoteldən yerli-yersiz narazılıq etmək kimi hər hansı cəhətləri yoxdur.

Qüsurları: əylənməkdən, istirahətdən daha çox alış-verişə önəm verməleri. Hotelə, istirahət kompleksinə gəldikləri ilk gün ən yaxınlıqdakı alış-veriş mərkəzinin yerini soruşurlar. Onları əllərində kitabla nadir halda görmək olar. Az idman edirlər, daha çox yeməyin vaxtı və menyu ilə maraqlanırlar.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 128 (6449) 13 iyun 2016

# Bakıda suvenir fırıldaqçılığı

## 1500 manata məcməyi, 120 manata xəncər, 50 manata "kitayski" Məşədi İbad...

**Azərbaycana gələn turistlərin sayı hər keçən gün artmaqdadır. Gələnlərin çoxu paytaxtın gəzməli və tarixi abidələri ilə zəngin olan İçərişəhərə axın edirlər. Ölkəmizə qonaq gələn turistlər öz ölkələrinə Azərbaycandan xatirə qalması üçün nələrsə alıb aparmaq istəyirlər. Heç kəsə sirr deyil ki, Bakıda ən çox ziyarət edilən suvenir mağazaları İçərişəhərdədir. Biz də bu suvenirlərin nələrdən ibarət olduğunu, mənşəyini və qiymətini öyrənmək üçün suvenirlərin daha çox satıldığı İçərişəhərə üz tutduq.**



Müşahidələrimiz zamanı gördük ki, suvenirlər arasında Azərbaycana məxsus milli gəlinciklər, çalğı alətləri, milli geyimlər, nar maketləri, baş örtükləri, Qız Qalasının kiçik maketləri, balaca muğam triosunun kuklaları, araqçınlar, papaqlar, üzərində Bakının və İçərişəhərdəki tarixi binaların təsviri çəkilmiş qablar, fincanlar, üzərinə "Baku" yazılmış təsbehlər, breloklar üstünlük təşkil edir. Ancaq suvenirlərin əksəriyyətinin harada istehsal olunduğuna dair bir bilgi yox idi. Bəzilərində isə "Made in China" sözü ilə rastlaşdıq. Belə çıxır ki, ölkəmizə Çindən bir turist gəlib Azərbaycanın tarixini, görməli yerlərinin təsvirini, personajlarını əks etdirən bu suveniri alıb arxasına baxsa, onun əslində Azərbaycanda yox, elə öz ölkəsində istehsal olunduğunu görər. Yəni çinli birinə öz malımız kimi çin malını satırıq demək olar. Satılan suvenirlərin qiyməti də ayrı-ayrılıqda əl yandırırdı. İçərişəhərdə olarkən bir neçə turistin bu cür suvenirləri seçib qiymətinə görə geri qoyduğunun şahidi olduq. Hətta çinli bir turist Bakının təsviri olan bir boşqabı alıb arxasına baxıb öz ölkələrində istehsal olunduğunu gördükdən sonra qəribə bir gülümsəmə ilə yerinə qoyduğunun şahidi olduq. Türk turistlər isə daha çox üzərində Bakının, Qız Qalasının və digər tarixi yerlərin mənzərəsi əks olunmuş maqnitlər alırdı. Ancaq onlar da bu maqnitlərin qiymətindən şikayətlənirdilər. Əli Boğazlı adlı turist öz ölkələrində bu cür maqnitlərin ucuz olduğunu deyirdi: "Sizdə maqnitlərin qiyməti 2 manat dan başlayır. Bizdə isə bu cür maqnitləri 1 manata, hətta 50 qəpiyə də almaq olur. Ümumiyyətlə Bakı çox bahalı bir şəhərdir".

İçərişəhərdə bu cür suvenirlər həm mağazalarda həm də kiçik piştaxtalarda satılırdı. Ancaq müşahidəmiz zamanı bəlli oldu ki, piştaxtada satılan suvenirlər mağazalarda satılan suvenirlərdən bir qədər baha idi. Məsələn, Bakının təsviri olan maqnit mağazada 2 manata idisə, piştaxtada 3 manata satılırdı. Sırf Azərbaycana məxsus olduğu deyilən kiçik baş örpəklərinin qiyməti 10 manatdan, ipəkdən olduğu deyilən örpəklər 50 manatdan, milli geyimdə olan kiçik gəlinciklər 15 manatdan, muğam triosu olan kiçik kuklalar 20 manatdan, çarıqlar 15 manatdan başlayırdı. Əl işi olan suvenirlər isə 8-100 manat arasında satılırdı. Azərbaycana məxsus kiçik suvenir xalçaların qiyməti isə 50 manatdan başlayırdı. Bundan başqa palıd ağacından düzəldiyi deyilən Məşədi İbad suvenirin qiyməti 50 manata, qoz ağacından hazırlanan tar 250 manata, qrammofon 300 manata satılırdı.



Suvenir satıcılarından birinə yaxınlaşıb satdığı suvenirləri haradan aldıqlarını maraqlandıq. Vüsal adlı satıcı suvenirlərin bəzilərini sənətkarlardan aldıqlarını, bəzilərinin isə Çindən gəldiyini dedi: "Bildiyim qədəri ilə Azərbaycanda suvenir istehsalı yoxdur. Ona görə də gördüyünüz üzərində Bakının təsviri yer alan boşqab, fincan kimi suvenirlər Çində istehsal olunur. Buradan eskizi çəkirlər, onlar da düzəldib göndərirlər. Məsələn, gördüyünüz Qız Qalasının kiçik maketi də Çində düzəlib. Oradan gətirmək həm də ucuz başa gəlir və burada üstünə xeyli pul qoyub satmaq olur. Burada sənətkarlar bunu baha satır. Məsələn, Qız Qalasının balaca suvenirini burada düzəldib bizə 1 man 50 qəpik və ya 2 manatdan satırlar. Bizdə məcbur üzərinə 1 manat pul qoysaq gəlib baha çıxır. Ancaq Çindən bunu 50 qəpiyə alırıq. Burada da 3-5 manata satırıq. Ancaq elə şeylər var ki, çinlilər onu düzəldə bilmirlər. Məsələn, milli musiqi alətlərinin kiçik suvenirini onlar düzəldə bilmir".



Digər suvenir satıcısı isə turistlərin elə də çox pul xərcləməyə meylli olmadığını dedi: "Gəlib bahalı sənət, əl işləri ilə maraqlanırlar. Axırda da 2 manata balaca bir maqnit alıb gedirlər. Bu il Rusiyadan gələn turistlər daha çoxdur. Avropa ölkələrindən gələnlər də var. Onlar əsasən rəsm əsərləri, suvenir xalçalarla maraqlanırlar".

Digər satıcı isə Turistlərin mis qablarla da maraqlandığını və alıcısının olduğunu dedi: "Az da olsa mis qablarla da maraqlanan, alan turistlər var. Mis qabların qiyməti 30 manatdan başlayır. Məsələn, peşəkar əl işi olan məcməyinin qiyməti 1500 manatdır. Əl işi olan nərd 100-200 manata, quzu dərisindən hazırlanmış papaqlar 60 manata, araxçın 3 manata, xəncərləri isə 15-120 manata satırıq. Bəzən qiymətində aşağı da düşürük. Qiymət öldürmək yalnız azərbaycanlılarda yox xaricilərin xasiyyətində də varmış".

Maraqlıdır, suvenirlərin "kitayski" olması və bu qədər baha satılması nə ilə bağlıdır, buna nəzarət varmı?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bu sahədə problemlər olduğunu dedi: "Bütün dünyada bu problem var. Azad bazar iqtisadiyyatıdır. Azərbaycan biznesmenləri suvenirləri burada hazırlatdırmır, eskizlərini aparıb Çində hazırlatdırıb gətirir. Əgər Azərbaycanın suvenir bazarının inkişaf etməsini, bu cür sənətkarlar əmələ gəlməsini istəyiriksə, dövlət buna stimul verməlidir. Ümumiyyətlə, turistlər üçün Azərbaycanda çoxsaylı problemlər var. Turistlər Azərbaycana yalnızca suvenir almaq üçün gəlmirlər. Onlar həm də normal xidmət istəyirlər. Bu sahədə isə ciddi qüsurlar, problemlər var. Ciddi problemlərdən biri dünya turistlərinin gözlə görmək istədiyi "İpək yolu" üzərində olan restoranlar, buradakı antisanitariya, tualetlərdə, əl üz yuyan yerlərdə lazım ləvazimatların olmamasıdır. Məsələn, mən keçən dəfə Şirvan şəhərinin mərkəzindəki "Bağ park" deyilən bir çayxanada idim. Bura çox gözəl yer idi. Ancaq buranın tualeti yox idi. Bu, çox biabırçı vəziyyətdir".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**
**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**
*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



# “Tacsız” kral: bu gün İspaniya mübarizəyə qoşulur

## Bu gün “Avro-2016“nın D  və E qrupunda yer alan komandalar qarşılaşacaq; Belçika-İtaliya matçına maraq daha böyükdür

**Bu gün “Avro-2016"nın D qrupunda yer alan sonuncu Avropa çempionu İspaniya millisi ”Munisipal" stadionunda Çexiya ilə qarşılaşacaq. Brazilayada dünyanın ən güclüsü titulunu itirən İspaniya Fransada çempionluğa ən real namizədlərdən biri hesab olunur. Bu səbəbdən də ikiqat Avropa çempionunun hansı hazırlıq səviyyəsində olduğu böyük maraq doğurur.**




AÇ seçmə mərhələsində İspaniya millisi əla nəticə göstərib, 30 mümkün xaldan 27-sini toplayıb. İspanlar 23 top vurub və cəmi 3 dəfə qapılarında qol görüblər. Amma AÇ seçmə mərhələ deyil, burda ən talesiz bir qol, qapıçının adi bir səhvi komandanı mükafatçılar sırasından kənarda qoya bilər.

Məlumdur ki, Del Boske budəfəki çempionata bir sıra gənc futbolçuları gətirib. Məsələn, seçmə mərhələdə İspaniyanın heyətində ən çox top (4) vuran “Valensiya”nın gənc forvardı Pako Alkaserin cəmi 22 yaşı var. “Yuventus”un oyunçusu Alvaro Moratonun  və “Real”dan milliyə dəvət almış İskonun 23 yaşı var. “Bavariya” dan millinin heyətinə daxil edlən Tyaqo Alkantaranın da 25 yaşı var. İspaniya millisi 2014-cü il dünya çempionatından sonra da FİFA reytinqindəki birinciliyinin əldən verməsə də, çempion reputasiyasını zədələyib.

Bu çempionat o baxımdan ispanlar üçün həm də bir revanş şansıdır ki, onu necə reallaşdıracaqları qrup mərhələsində bilinəcək.

İspaniyanın ilk turda Çexiya ilə qarşılaşması işinə yarıya bilər. Çünki startda qələbə çox vacibdir, üstəlik əgər çempionata kubok arxasınca gəlmisənsə... Çexiya İspaniya üçün təhlükəli rəqib deyil, amma çexlər üzərində qələbə qazanmaq da asan...




Müstəqillik qazanandan bəri artıq altıncı AÇ iştirakçı olan Çexiya, məsələn, İngiltərə milisindən daha yaxşı nəticə göstərib. Belə ki, çexlər üç dəfə pley-offda oynayıblar, AÇ-də  ikinci və üçüncü yeri tutublar. Pavel Vbranın yetirmələri seçmə mərhələdə 7 oyunda qalib gəliblər. Çexiya milisinin seçmə mərhələdə qapılarından 14 top buraxması komandanın müdafiə xəttində problemlər olduğunu göstərir. Güclü və texnikalı İspaniya millisinin hücumçuları qarşısında zəif müdafiə ilə dayanmaq mümkün deyil. İspanların heyətindəki ulduzlarla müqayisədə çexlər “kasıb” hesab oluna bilərlər. “Arsenal”ın qapıçıçı Peter Çex istisna olmaqla təbii... Hazırda çexlərin heyətində ən məhsuldar oyunçu Tomaş Neçiddir. Mareka Suxi də çexlərin ümidverici futbolçularındandır.

Çexiya mətbuatı yazır ki, İspaniyadan sonra ikinci vəsiqəni çexlər qazanmalıdır, əks halda bu, komandanın uğursuzluğu hesab olunacaq. Qeyd edək ki, bu çempionatda üçüncü yer tutan 4 ən yaxşı nəticə göstərmiş komanda da növbəti mərhələyə keçəcək. Bu baxımdan D qrupunda azarkeşlərin diliylə desək, “qırğın” olacağı gözlənilir.

İspaniya və Çexiya 2012-ci ilin AÇ seçmə mərhələsində bir qrupda oynayıblar. Hər iki oyunda ispanlar qalib gəliblər. Madriddə hesab 2:1 olub, Praqada isə ispanlar iki cavabsız topla qalib gəliblər. Futbol bilicilərinin matç ərəfəsi proqnozlarına görə, İspanlar bugünkü oyunda iki top və ya da çox top fərqi ilə qalib gələcəklər. Amma sürprizlərə hazır olmaq, çexləri “dəfn etməyə” tələsməmək lazım...

### İrlandiya və İsveç qarşılaşması: kim güclüdür?

E qrupunda isə bu gün  İrlandiya İsveçrə ilə qarşılaşacaq. Hər iki komanda Fransaya vəsiqəni keçid oyununda qazanıb. İngiltərə və Skandinaviya futbol məktəbinin yetirmələri sürətli oyuna üstünlük verirlər və bugünkü oyunda çoxlu qayda pozuntularının olması mümkündür.

İrlandiya millisinin Fransaya vəsiqə qazanması artıq böyük uğurdu və bu səbəbdən “Avro-2016"da proqnozlar onu ”autsayderlər" səbətinə salıb. İrlandiya seçmə mərhələsində öz meydanında keçirdiyi oyunlarda uduzmadı, üstəlik son dünya çempionu Almaniyanı minimal hesabla məğlub da etdi. Amma qrupda yalnız üçüncü yeri tuta bildi və Bosniya ilə iki oyunun nəticəsinə görə Fransaya vəsiqə qazandı.

İrlandiya millisində hazırda nəsil dəyişmə prosesi gedir. Amma komanda da yenə də əsas söz sahibi yaşı 30 və daha çox futbolçulardır. Təsadüfi deyil ki, komandanın ən yaxşı qolçusu yenə “qoca qurd” Robbi Kindir. İrlandiya futbolunun veteranı seçmə məhələdə keçirilən 10 oyunda meydana çıxıb və 5 top vura bilib. İrlandiyanın heyətində Rusiyanın “Spartak” klubunda oynamış  Eyden Makqidi də var. 2012-ci il çempionatında İrlandiya millisi çox zəif nəticə göstərdi. Keçirdiyi üç görüşün hamısında məğlub oldu, qapılarında 9 top buraxdılar. Gözlənilir ki, İrlandiya milisi bu dəfə qrup üçüncüsü kimi çempionatda iştirakı davam etməyi hədəfləyib.

İsveçrəni çəkinmədən Zlata İbrahimoviçin komandası kimi təqdim etmək olar. İbrahimoviç millidə 107 oyun keçirib ki, 57 dəfə rəqiblər qapısına yol tapa bilib. İsveçrə çempionatlarda sürpriz etməyi xoşlayır, bu səbəbdən də onlarla bağlı proqnozlarda ehtiyatlı olmaq lazımdır. İsveçrə millisi də keçid oyunda Fransaya vəsiqə almasına baxmayaraq, onlar bu gün qarşılacaqları rəqiblərindən çox təcrübıəlidirlər. Komandada Andreas Qrandkbist, Pontus  Venhblum və Kim Çelestrem kimi oyunçular var. İsveç milisinin növbəti mərhələyə çəıxması da heç kimi təəccübləndirməz.

İrlandiya və İsveçrə yığması sonuncu dəfə 2014-cü dünya çempionatının seçmə mərhələsində qarşı-qarşıya gəliblər. Stokholmda keçirilən oyunda hesab açılmayıb, Dublində isə İsveçrə 2:1 hesabı ilə qalib gəliblər.

Bu oyunda komandaların şansları bərabər hesab olunur.



### Belçika da çempionluğa namizəddir

Günün ən maraqlı oyunu isə E qrupunda yer alan  Belçika və İtaliya milliləri arasında olacaq. Belçika millisi 16 ildən sonra ilk dəfədir ki, Avropa çempionatında oynayacaqlar. Belçika millisi seçmə mərhələsində keçirdiyi 10 görüşçün yalnız birində məğlub olaraq qrup lideri kimi Fransaya vəsiqə qazanıblar.

Belçika milisi bu oyunlarda 24 top vurub. Bu topların 5-ni “Çelsi”də oynayan Eden Azar, 5-ni isə Kevin de Bryune(“Mancestr-Siti”) vurub. Bu forvardlardan başqa Belçikanın heyətində hücum xəttində  “Liverpul”lu Kristian Benteke və Romelu Lukaku (“Everton”)  kimi oyunçular da var. Rusiya klublarında oynayan Vitsel və Nikolas Lombertsə də ümidlər böyükdür. Mark Vilmotsun yetirmələrini ehtiyatlı da olsa bu çempionatın ən iddialı komandalar sırasına daxil edirlər.

Belçika kimi İtaliya millisi də Avro 2016-ya xüsusi çətinlik çəkməkdən vəsiqə qazanıblar. İtaliyalılar seçmə mərhələdə bir dəfə də meydanı məğlub tərk etmədilər. İtaliya millisində hücum xəttində rəqiblərində olduğu kimi parlaq hücumçu yoxdur. Təsadüfi deyil ki, seçmə mərhələdə qolları 10 müxtəlif futbolçu vurub. Yalnız qollardan üçünü hücumçu Sautqemptona Qraçianno Pele vurub. Komandanın heyətində El-Şaaravi (“Monako”), De Şilo(“Milan”) və Marko Veratti (PSJ) kimi gənc oyunçular var.







Belçika və İtaliya uzun müddətdir ki, beynəlxalq arenalarda qarşı-qarşıya gəlməyiblər. 2008-ci ildə yoldaşlıq görüşündə italiyalılar 3:1 hesabı ilə qalib gəliblər. 2015-ci ildəki yoldaşlıq görüşündə isə belçikalılar qalib gəlib. Bu oyunda bukmeykerlər Belçikanın qələbəsinə daha çox inanırlar.

❑ **Nazim SABİROĞLU**

YENİ MÜSAVAT

Son səhifə

N 128 (6449) 13 iyun 2016



## Bu cür gülüşü olan adamlar xəstədir

**"Witzelsucht" xəstəliyinə düçar olanlar bütün günü gülür və zarafat edirlər. Bu xəstəliyin adı alman dilindən tərcümədə "zarafatı sevən" mənasını verir. Belə xəstələrin beyinlərinin sağ yarımkürəsində problem olur. Əgər problem sol yarımkürədə olarsa, xəstəliyin əlaməti tam əksinə, qaraqabaqlıq, özünəqapanmaqla müşayiət olunur.**

"Witzelsucht" xəstəliyinə tutulanların ən böyük problemlərindən biri ətrafdakı insanları narahat etmələridir. Onlar istənilən məqamda və istənilən məkanda yersiz zarafatları və gülüşləri ilə xoşagəlməz vəziyyət yarada bilirlər. Məsələ burasındadır ki, belə xəstələr yumor hissini, başqalarının zarafatlarını qəbul edə bilmirlər. Komediya janrında olan filmlər belə bu xəstələri güldürə bilmir və onlar bu filmlərə ciddi bir film kimi baxırlar. Ancaq film qurtardıqdan sonra sözün əsl mənasında komediya başlanır. Onlar bu filmdə göstərilən süjetləri öz məharətlərinə uyğun təkrarlamağa başlayırlar.

Bu gülməli xəstəliyin ən acınacaqlı tərəflərindən biri də odur ki, onlarla ciddi fikir mübadiləsi aparmaq və söhbət etmək mümkün deyil. Qarşıdakı insan nə qədər ciddi olarsa belə xəstələrin gülüşü də bir o qədər sürəkli olar.

Hələ ki, tibb elmi bu xəstəliyin müalicəsində acizdir. Həkimlər, sadəcə, bəzi dərman preparatlarının vasitəsi ilə sürəkli və şaqraq gülüşləri çox qısa bir müddətə müvəqqəti olaraq dayandıra bilirlər.

## Dünyanın ən idmançı qadını 32 yaşında öldü

**Avstraliyada 32 yaşlı bodibildinq üzrə çempion Endi Peyc dünyasını dəyişib. "Dünyanın ən idmançı qadını" statusunun sahibi olan bu xanımın qəfil ölümünün səbəbi bilinmir. Qold-Kost şəhər polisi bu olayla bağlı araşdırmaya başlayıb. Peycin boks üzrə məşqçisi bildirib ki, o, hər zaman çox çalışqan olub və özünə "yazığı gəlməyib".**



Onun sözlərinə görə, son günlər qız məşqlər zamanı aldığı zədələri aradan qaldırmağa çalışırdı. Məşqçi onun zərərli preparatlar qəbul etməsi ehtimalını rədd edib. Ölümündən bir gün öncə böyrəyindəki ağrılardan şikayətlənən qadın yuxusunda ikən dünyasını dəyişib. Peyc bir neçə il ciddi şəkildə bodibildinqlə məşğul olub. Avstraliyalı beynəlxalq müsabiqələrdə yüksək nəticələr əldə edib. Bundan başqa, o, aktiv şəkildə sosial şəbəkələrdə olub, orada sağlam həyat tərzini təbliğ edib, onun sirlərini açıqlayıb.

## Çox nağıl oxuyan uşaqlar daha az eqoist olurlar



**Kanadadakı York Universitetinin alimi, psixoloq Raymond Mar və Toronto Universitetində çalışan Keith Oatley öz araşdırmalarında bu qənaətə gəliblər ki, roman oxuyan insanlar başqalarının dərdini daha yaxşı anlayır, onların dərdinə şərik olur, başqalarının düşüncə tərzi, maraqları və inanclarına hörmətlə yanaşır, onları daha yaxşı anlayırlar. Bir sözlə, kitab oxuyanlar daha yaxşı insanlardırlar.**

Kitab oxuyaraq onlar başqalarının həyatına yazıçının abstrakt təhkiyəsi prizmasından baxırlar. Bu onlara imkan verir ki, minlərlə başqa insanın, yeni obrazların daxili aləminə baş vursun, həmin obrazların kimliyinə bürünüb yaşasın, onların səhvlərindən öyrənsin, müdrikliyindən bəhrələnsin. Kişidirsə qadın olmağın nə demək olduğunu anlasın, qadındırsa, kişinin düşüncə tərzindən, psixologiyasından xəbərdar olsun. Bir sözlə, mütaliə həvəskarları psixoloji baxımdan öz yaşlarından daha böyük olur, gerçək həyatda illərlə, görüb-götürdükcə toplaya biləcəkləri bilgini, təcrübəni kitablardan əxz edirlər. Marın 2010-cu ildə apardığı başqa bir tədqiqatın nəticələrinə görə isə, uşaqlara nə qədər çox nağıl, hekayə oxunursa, onlar bir o qədər az eqoist olur, başqalarını daha yaxşı anlayır, onların fikirlərinə hörmətlə yanaşırlar.

Çünki mütaliə xarakter formalaşdırır. Sən roman oxuyursansa, baş qəhrəmanın düşdüyü çətin vəziyyətlərdən necə çıxacağı haqda sən də düşünürsən, onun qələbəsi həm də sənin qələbən olur. Onun hiss etdiyi ağrını sən də yaşayır, onun kədəri həm də sənin kədərin olur. Beləcə, illərlə kitab oxuyursan və minlərlə insana qarşı mərhəmət hissi duymuş, onların qələbəsindən, məğlubiyyətindən, hətta ölümündən nəticə çıxarırsan, nələrisə öyrənmiş olursan.

## Qoroskop




**QOÇ** - Nə qədər çətin olsa da, bu təqvimi təmkinlə başa vurmalısınız. Əks təqdirdə qarşıdakı ongünlük üçün nəzərdə tutduğunuz mühüm planlarınızın reallaşması xeyli çətinləşə bilər.

**BUĞA** - İxtiyarınızda olan bu gündə işləriniz çox olacaq. Bu səbəbdən də ikitərəfli əməkdaşlığa başlamağa dəyər. Əmin olun ki, bu təqvimdə əziyyətlərinizin bəhrəsini görəcəksiniz.

**ƏKİZLƏR** - Ulduzların düzümü şəhadət verir ki, günün ilk yarısını daha çox Allaha ibadətlə başa vursanız, sonrakı saatlarda heç bir maddi-mənəvi sıxıntı çəkməyəcək, gümrah olacaqsınız.

**XƏRÇƏNG** - Maraqlı insanlarla rastlaşacağınıza inana bilərsiniz. Ola bilsin ki, həmin şəxslər perspektivlərinizin reallaşmasına yardımçı olsun. Ünsiyyətdə acıdil və qərəzli olmayın.

**ŞİR** - Kifayət qədər sürprizli vaxtdır. Ağlınıza gəlməyən istiqamətlərdən ürəyinizcə olan xəbər və ya təklif ala bilərsiniz. Fəaliyyətlə əlaqəli olmasa, heç bir uzaq səfərə çıxmayın.

**QIZ** - Maliyyə problemləriniz qabarmaqdadır. Lakin narahat olmağa dəyməz. Çünki qarşınızda duran günlərdə bu çətinliyiniz aradan qalxacaq. Nahardan sonra uzaq səfərə çıxmaq uğurludur.

**TƏRƏZİ** - Təzadlı ərəfəyə təsadüf edən bu günü bir qədər mübahisəli şəkildə keçirəcəyiniz gözlənilir. Odur ki, özünüzü ələ almalı, insanlarla ünsiyyətinizi kifayət qədər məhdudlaşdırmalısınız.

**ƏQRƏB** - Günün ilk yarısında enerji yığmaq üçün yaxşıca istirahət edin. Çünki saat 13-dən sonra gözlənilmədən aktivləşəcəksiniz. Aldığınız bütün təkliflərə razılıq verin, büdcənizi dağıtmayın.

**OXATAN** - Yaxşı olar ki, bu təqvimi bütünlüklə istirahətə həsr edəsiniz. Onsuz da fəaliyyət və pul qazanmaq istiqamətində heç bir uğur gözlənilmir. Buna baxmayaraq, rəsmi dəvətləri qəbul edin.

**OĞLAQ** - Ürəyinizin səsinə qulaq asın. İmkan verməyin ki, ideyalarınızın istiqamətini kimsə dəyişsin. İnanın ki, belə olarsa bütün cəhdləriniz reallaşacaq. Əyləncələrə aludə olmayın.

**SUTÖKƏN** - Doğmalarınızla münasibətdə bir qədər mübahisə ola bilər. Buna görə də neytral olmalısınız, hətta səhv qarşı tərəfdə olsa belə. Saat 16-19 aralığında hər mənada ehtiyatlı olun.

**BALIQLAR** - O qədər də uğurlu vaxt deyil. Bir tərəfdən səhhətinizdə problemlər, digər tərəfdənsə başa düşülməməyiniz ovqatınızı aşağı sala bilər. Səyyar fəaliyyətdən yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Kök olanları restorana buraxmırlar



**Yaponiyada gələn ay açılacaq "alt paltarı" konseptli restorana kök müştərilər buraxılmayacaq. Tokioda istifadəyə veriləcək "The Amrita" adlı restorana gələnlər öncə bütün paltarlarını çıxaracaq və restoran tərəfindən onlara verilən alt paltarlarını geyinəcəklər. Alt paltarı ilə köklükləri gözə çarpanların bədən ölçüləri alınacaq və boy-çəki normasından 15 kilo kök olanlar restorana girə bilməyəcək. Restoranda 18-60 yaş arası insanlar yemək yeyə biləcək. Cib telefonları da özəl həyata hörmət çərçivəsində masalarda yerləşən özəl bir qutuya yerləşdiriləcək. Restoranda adambaşı qiymət 200-400 dollar məbləğindədir. Yeməklərin özəl şou müşayiətilə masaya gətirilməsini istəyənlər üçün adambaşı qiymət min dollardan az deyil.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750